9 NOYABR DÖVLƏT BAYRAĞI GÜNÜDÜR!

N44 (1143)

5-11 noyabr 2020-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır

# İlham Əliyev: Əminəm ki, bu münaqişə bizim təkcə İtaliya ilə münasibətlərimizə yox, heç bir ölkə ilə münasibətlərimizə təsir etməyəcək

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də İtaliyanın "La Repubblica" qəzetinə müsahibə verib.* Müsahibəni təqdim edirik.



**- Cənab Prezident, Siz artıq qələbəni dadmısınız?**

– Bizim vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək idi və biz bu vəzifəyə yaxınlaşırıq. Biz ərazi bütövlüyünün bərpasını, demək olar ki, 30 il idi gözləyirdik. Bildiyiniz kimi, bütün bu müddət ərzində Azərbaycan danışıqlar prosesinə ciddi şəkildə sadiq olub. Lakin əfsuslar olsun ki, bu, hər hansı əhəmiyyətli nəticə vermədi. Bundan əlavə, son bir neçə ildə Ermənistan rəhbərliyi öz bəyanatları və əməlləri, o cümlədən hərbi təxribatları ilə bizi hər zaman təhrik edirdi. Sonuncusu sentyabrın 27-də baş verdi. Biz cavab verməli olduq və bizim cavabımız Ermənistan üçün çox həssas idi. Biz qələbədən danışarkən qarşımıza belə bir hədəf qoymamışdıq. Biz onu danışıqlar masasında həll etmək istəyirdik. Lakin biz bunu döyüş meydanında etməyə hər zaman hazır idik və bunu da edirik.

**– Putin müdaxilə etmək istəmir. Beləliklə, Siz maneəsiz hərəkət edə bilərsiniz?**

– Əslində, mən dəfələrlə vəziyyəti şərh etmişəm ki, eyni zamanda, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan Minsk qrupunun həmsədrləri – üç ölkə 1993-cü ildə Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələr qəbul ediblər. Ona görə də bu ölkələr özləri həll üçün qanuni baza yaradıblar. Lakin Ermənistan bu qətnamələri yerinə yetirmədi. Mənim istinad etdiyim başqa bir məqam ondan ibarətdir ki, vasitəçilər vəziyyətlə bağlı necə fikirdə olmaqlarından, bizimlə və ya Ermənistanla əlaqələrinin nə dərəcədə yaxın olmağından asılı olmayaraq neytral olmalıdırlar. Lakin onlar neytral olmasalar, vasitəçi ola bilməzlər. Ona görə də bizim yerində bu və ya digər dərəcədə gördüyümüz neytrallıq, düşünürəm ki, işlərin necə getməsinin yeganə yoludur. Odur ki, bu, bizim üçün yaşıl işıq deyildi. Biz sentyabrın 27-də Ermənistanın hücumunadək nə edəcəyi barədə 100 faiz təsəvvürümüz olmadan cavab verdik, biz ölkəmizi qorumaq, insanlarımızı qorumaq və ədaləti bərpa etmək üçün doğru olduğunu düşündüyümüzü etdik.

**– Rəsmi Ankaranın dəstəyi Sizin fəaliyyətiniz üçün nə dərəcədə səmərəlidir?**

– Çox səmərəlidir. Bu dəstək lap əvvəldən, sentyabrın 27-də başlayan toqquşmaların ilk saatlarından gəldi. Türkiyə Prezidenti çox aydın bəyanatla çıxış etdi ki, Türkiyə Azərbaycanın yanındadır və bu, siyasi və mənəvi dəstəyin çox mühüm göstəricisi idi. Mən dəfələrlə o fakta diqqət çəkmişəm ki, bu, yalnız siyasi və mənəvi dəstəkdir, lakin bu, kifayət idi. Çünki Türkiyə kimi güclü ölkə bu məsələ ilə bağlı mövqeyini açıq şəkildə bəyan edəndə, həm də bütün dünyaya mesaj göndərir ki, Azərbaycan doğru işi görür. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir, Azərbaycan öz ərazisində döyüşür, biz təcavüzkar deyilik, biz başqa ölkələrə hücum etmirik. Ona görə də, toqquşmaların ilk saatlarında başlayan və indiyədək davam edən bu siyasi dəstək münaqişənin həlli üçün mühüm əhəmiyyət kəsb edir.

**– Sizin ordunuzla birlikdə Ermənistana qarşı döyüşən mücahidlərin mövcudluğu barədə Prezident Makron, Rusiyanın Xarici İşlər nazirinin söylədikləri barədə nə deyə bilərsiniz? Bu, doğrudur?**

– Bu müddət ərzində, bir aydan çox vaxtda mən artıq dəfələrlə bu məsələyə diqqət çəkmişəm və demişəm ki, bu, doğru deyil. Bu, doğru məlumat deyil. Mən bilmirəm bu məlumat niyə yayılmışdı və hələ də yayılır. Birincisi, bizə bununla bağlı heç bir dəlil, heç bir sübut təqdim olunmayıb. Hamısı sözlər idi və bu sözlər münaqişənin ilk günlərində söylənmişdi. Siz Prezident Makronun bununla bağlı bəyanatına istinad etdiniz. Bu, yalnız münaqişənin ilk günlərində idi. O vaxtdan bu yana biz bu cür bəyanatlar eşitməmişik. Bu, birincisi. Heç bir sübut, heç bir dəlil. İkincisi, ehtiyac yoxdur. Mən dəfələrlə demişəm ki, bizim 100 min döyüşçüsü olan ordumuz var, nizami ordu. Tam səfərbərlik elan etsək, bundan bir neçə dəfə çox adam səfərbər edə bilərik. Bizim müasir silahlarımız var. Mükəmməl texnologiyamız var və bizim çox yüksək döyüş ruhumuz var. Ona görə də, buna ehtiyac yoxdur. Lakin əfsuslar olsun ki, digər tərəfdə baş verənlərə məhəl qoyulmur. Bizdə əcnəbilərin Ermənistan tərəfindən döyüşdüyünə dair kifayət qədər dəlillər var. Onlar erməni əsilli olduqlarını deyirlər, lakin birincisi, bunun heç bir fərqi yoxdur. Çünki əgər əcnəbi vətəndaş bir ölkə tərəfindən digər ölkəyə qarşı döyüşürsə, o, muzdludur. Bundan əlavə, onların hamısının erməni olmasına dair bizdə 100 faiz dəlil yoxdur. Biz başqalarının olduğunu bilirik. Bilirik ki, PKK oradadır. Bilirik ki, Yaxın Şərqdən bəzi terrorçular qondarma "Dağlıq Qarabağ ordusu"na qoşulublar. Ona görə də, əfsuslar olsun ki, bu məsələ qətiyyən müzakirə mövzusu deyil. Bu, Azərbaycana qarşı qəsdən törədilmiş hücum barədə siyasi hücum təəssüratı yaradır. Bundan əlavə, ermənilərin bu yalan bəyanatdan sui-istifadə etmələrinin səbəbi odur ki, bizim onları döyüş meydanında məğlub etdiyimizi qəbul etmək onlar üçün yəqin ki, çox ağrılıdır. Onlar 30 il ərzində özlərini elə göstərirdilər ki, məğlubedilməz orduları var. Onlar 30 il ərzində bizim əraziləri təkbaşına işğal etdiklərini deyirdilər, baxmayaraq ki, biz bunun doğru olmadığını bilirik. Beləliklə, biz onlara kimin kim olduğunu sübut etdik. Biz sübut etdik ki, onların "guya məğlubedilməz ordusu" əfsanədir, mifdir və bunu qəbul etmək onlar üçün çox ağrılıdır. Lakin onlar artıq öz məğlubiyyətlərini etiraf ediblər. Baş nazir Paşinyan Prezident Putinə məktub göndərərək hərbi yardım xahiş edib. Bu, onların hərbi məğlubiyyətlərini və bizim qələbəmizi qəbul etmələri deməkdir.

**– 98 faiz ermənilərin məskunlaşdığı ərazidə mümkün qələbəni qazanmağın Sizin üçün hansı çətinliyi olacaq?**

– Bu ərazidə bəlkə də indi daha çox erməni məskunlaşıb, çünki bütün azərbaycanlılar didərgin salınıblar. Onlar azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirdilər. Bu, statistikadır, bizim deyil, sovet dövrünün statistikasıdır. 1970-ci illərin sonunda Dağlıq Qarabağ muxtar vilayətində müxtəlif millətlərdən olan neçə nəfər yaşayırdı? Əhalinin, demək olar ki, 25 faizi azərbaycanlılar idi, 40 min nəfər. Şuşada 98 faiz azərbaycanlılar məskunlaşmışdılar. Bu gün orada bir nəfər azərbaycanlı belə yoxdur. Xankəndidə çox sayda azərbaycanlı var idi. Hadrut rayonunda, digər rayonlarda, soyqırımı törətdikləri Xocalıda 100 faiz azərbaycanlılar idi. Beləliklə, onların hamısı etnik təmizləməyə məruz qalıb, qətlə yetirilib, işgəncəyə məruz qalıb və didərgin salınıblar. Təəssüflər olsun ki, heç kim Ermənistanı bunda günahlandırmayıb. Biz Ermənistana qarşı hər hansı sanksiyaları görmədik, bizə hər hansı ciddi informasiya dəstəyi görmədik. Beləliklə, bu, edildi və onlar yerində reallıq yaratdılar. Bu, birincisi. İkincisi, 200 il bundan əvvəl orada, ümumiyyətlə, erməni yox idi. Çünki mən Qarabağ xanının Rus imperiyası ilə imzaladığı müqavilələrə dəfələrlə istinad etmişəm. Həmin müqavilədə - 1805-ci il Kürəkçay müqaviləsində etnik ermənilər barədə heç nə deyilmir. Etnik ermənilər bu regiona onun dini və etnik tərkibini dəyişdirmək məqsədilə Şərqi Anadoludan və İrandan çar Rusiyası tərəfindən gətirilmişdilər. Beləliklə, bu, tarixi hissəsidir. İndi sizin sualınıza gələk. Mən dəfələrlə demişəm ki, Dağlıq Qarabağda yaşayanların hamısı orada sülh və ləyaqət içində yaşamağa davam edəcəklər. Ermənilər bizim vətəndaşlarımızdır. Azərbaycanın müxtəlif yerlərində, əsasən, Bakıda minlərlə erməni yaşayır. Dağlıq Qarabağda yaşayan ermənilər əmin ola bilərlər ki, onların təhlükəsizliyi təmin ediləcək, onların maddi vəziyyəti daha yaxşı olacaq və onlar bu gün Dağlıq Qarabağdakı xunta rejiminin basqısı altında olduğundan daha yaxşı həyat sürəcəklər.

**– Üç atəşkəs artıq pozulub. Sülh danışıqlarının heç bir nəticə vermədiyi görünür. Buna görə kim günahkardır?**

– Ermənistan. Xronologiyaya nəzər salın. Birinci atəşkəs Moskvada razılaşdırılmışdı, 24 saatdan da az vaxt ərzində onlar Ermənistan ərazisindən ballistik raketlə Gəncəyə hücum etdilər. Bu, sübut olunub. Rusiya, Fransa, Amerika Birləşmiş Ştatları və bir çox başqa ölkələr ballistik raketin haradan buraxılmasını aşkar edə bilərlər. Odur ki, onlar raketin Ermənistandan buraxıldığını bilirlər. Paşinyan bunu onlar etməyiblər dedikdə yalan danışırdı. Bu, 24 saatdan az müddətdə baş vermişdir və onlar gecə çox namərdcəsinə hücum etdilər, onlar bilərəkdən yaşayış yerinə hücum etdilər və bu iki hücum nəticəsində demək olar ki, 30 günahsız insan, o cümlədən uşaqlar öldürülmüşdür. İkinci atəşkəs elan olunduqdan beş dəqiqədən sonra onlar tərəfindən pozulmuşdur və üçüncü atəşkəsi onlar Bərdəyə hücum etməklə pozdular. Beləliklə bunu edən biz deyildik. Biz nə etməli idik? Onlar bizi öldürdükdə oturub gözləməli idik? Əlbəttə ki, biz cavab verdik və bunu etməyə davam edəcəyik. Onlara atəşkəs təcavüzlərini davam etdirmək, bizim azad etdiyimiz torpaqları geri alıb və yenidən işğal etməyə cəhd etmək üçün lazım idi. Onlar mülki şəxslərə hücum etməklə Azərbaycanda, həmçinin xaos və panika yaratmaq istəyirdilər. Lakin onlar Azərbaycan xalqının ruhunu düzgün hesablaya bilməmişdilər. Bəli, biz bu namərd hücumlardan əziyyət çəkdik. Bu vaxtadək 91 nəfər mülki şəxs öldürülüb və 400-dən çox adam yaralanıb. Lakin bu, bizim iradəmizi sındırmadı. Əksinə, bu, bizi daha da güclü etdi.

**- Üç həftə bundan qabaq görüşdüyüm baş nazir Paşinyana cavabınız nə olar? O dedi ki, Dağlıq Qarabağda yeni soyqırımının olmasından qorxur.**

- Tamamilə yalandır. Onların bütün tarixi yalandır. Bunun heç bir əlaməti yoxdur. Mən dedim ki, Azərbaycanda minlərlə erməni yaşayır. Ermənistanda və ya Dağlıq Qarabağda yaşayan heç bir azərbaycanlı yoxdur. Ermənistan əhalisinin 99 faizi etnik ermənilərdir. Regionumuzda bir millətin belə üstünlük təşkil etdiyi başqa bir ölkə tapa bilərsinizmi? Bu, monorespublikadır. Nəyə görə? Çünki onlar ya hər kəsi qovublar, ya da başqa millətlər orada yaşaya bilmir. Azərbaycan multietnik, çoxkonfessiyalı ölkədir. Buna görə dırnaqarası soyqırımı haqqında danışmaq tamamilə qəbuledilməzdir və bu, onların təqdim etmək istədiyi daha bir feykdir, necə ki, onlar bunu həmişə edirlər. Onlar həmişə özlərini əziyyət çəkən, həmişə ağlayan, həmişə köməyə ehtiyacı olan insanlar kimi təqdim etmək istəyirlər. Lakin, baxın, bu gün nələr baş verir. O, Prezident Putinə gündə beş dəfə zəng edir, o, Prezident Makrona ola bilsin bir qədər az zəng edir, amma yenə də zəng edir, o, hər kəsə zəng edir. O, Avropa liderlərinə zəng edir. O, Dağlıq Qarabağın tanınmasını xahiş edir, lakin başa düşmür ki, Azərbaycanın ərazi bütövlüyü ilə bağlı Avropa İttifaqının vahid mövqeyi var. Ona görə müəyyən dəstəyi əldə etmək üçün o, hər bir feyk üsuldan istifadə etməyə çalışır. Odur ki, dediyim kimi bu, tamamilə yalandır. Mən dediyim sözlərə cavabdehəm, Dağlıq Qarabağda yaşayan ermənilər əmin ola bilərlər ki, onların təhlükəsizliyi təmin olunacaq.

**- İtaliya ilə Sizin xüsusi tərəfdaşlığınız var. Siz bizim birinci neft və qaz təchizatçımızsınız. Müharibə daha çox qanın tökülməsinə səbəb olarsa, bunun tərəfdaşlığa təsir etməyindən qorxmursunuz?**

- Mən belə hesab etmirəm. Birincisi, mən düşünürəm ki, müharibə nə qədər tez qurtarsa, bir o qədər də yaxşı olar. Biz belə bir təklif irəli sürdük və bizim təklifimiz çox konstruktiv idi. Bu bir aydan çox müddətdə mən dəfələrlə demişəm və bir daha təkrar edə bilərəm ki, Ermənistanın baş naziri yerdə qalan ərazilərin boşaldılacağına dair üzərinə öhdəlik götürsə, biz bu gün dayanmağa hazırıq. Hələ ki, o, üzərinə belə bir öhdəlik götürməyib. Kompromislər haqqında ona sual verildikdə o, həmişə öz müqəddəratını təyinetmədən danışır. Lakin öz müqəddəratını təyinetmə onların getməli olduğu kompromis deyil. Onların kompromisi BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və əsas prinsiplərin icrasına müvafiq olaraq işğal olunmuş bütün ərazilərin boşaldılması olmalıdır. Əsas prinsiplərdə deyilir ki, əvvəlcə beş rayon, sonra da iki rayon boşaldılmalıdır. Biz artıq dörd rayonu birtərəfli qaydada azad etmişik. Buna görə də o, deməlidir ki, qoşunlarını Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal altında qalmış ərazilərindən geri çəkəcəkdir. Lakin o, bəyanat vermir. Bu, onu göstərir ki, o, müharibənin dayanmasını istəmir. Biz hazırıq, bu, birincisi. Mən bunun bizim tərəfdaşlarla hər hansı mürəkkəblik yaradacağını düşünmürəm. İtaliya ilə bizim xüsusi münasibətlərimiz var. Biz Strateji Tərəfdaşlıq Sənədi adlanan sənədi imzalamışıq. Mən pandemiyadan əvvəl İtaliyaya rəsmi səfər etmişdim, o, çox uğurlu olmuşdur və biz böyük planlarla geriyə, evə döndük. Mən əminəm ki, biz bu planları icra edəcəyik, baxmayaraq ki, pandemiya onlara bir az müdaxilə etdi. Lakin bu planlar əsasən enerji sektoru ilə əlaqəli deyildi. Düşünürəm ki, biz enerji istiqamətində bütün planlaşdırdıqlarımızı icra etdik. Hesab edirəm ki, bu gün İtaliya neft təchizatına görə bizim üçün əsas ticarət tərəfdaşıdır və tezliklə biz TAP-ın açılışını qeyd edəcəyik və bununla da Cənub Qaz Dəhlizi tamamlanmış olacaqdır. Üstəgəl, bir çox italyan şirkəti uzun illərdir ki, Azərbaycanda uğurla fəaliyyət göstərir. Biz podratçı qismində daha çox italyan şirkətlərini dəvət etməyi planlaşdırırıq. Yeri gəlmişkən, burada onlar neft-kimya məhsulları üzrə bir çox önəmli layihələri tamamlamışdılar və biz Prezident Mattarella ilə birlikdə açılış mərasimində iştirak etmişik. Buna görə mən əminəm ki, bu münaqişə bizim təkcə İtaliya ilə münasibətlərimizə yox, heç bir ölkə ilə münasibətlərimizə təsir etməyəcək. Mən bundan əminəm.

# “Türkiyə ilk saatlardan bizim yanımızda olduğunu bəyan etmişdir”



***Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Türkiyə Respublikasının keçmiş Baş Naziri Binəli Yıldırımın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən bildirib.***

**O, deyib:** - Çox sağ olun ki, gəlmisiniz. Biz bunu çox yüksək qiymətləndiririk. Bu, növbəti həmrəylik təzahürüdür. Əziz qardaşım, cənab Prezident dediyi kimi, Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu dönəmdə də birliyimiz daha da möhkəmləndi. Bildiyiniz kimi, indi Vətən müharibəsi gedir, yaxşı nəticələr var, bir çox şəhərlər, kəndlər işğalçılardan azad edilib. Demək olar ki, hər həftə Azərbaycan xalqına bu haqda məlumat verirəm. Bu gün də yeni kəndlərin işğaldan azad edilməsi xəbəri veriləcəkdir. Artıq ilkin məlumatlar gəlibdir. İnşallah, sona qədər bu haqlı davamızı davam etdirəcəyik, işğalçıları torpaqlarımızdan qovacağıq.

Türkiyə ilk saatlardan bizim yanımızda olduğunu bəyan etmişdir. Hörmətli Prezident, əziz Qardaşım çox açıq bəyanatlar vermişdir ki, Türkiyə hər zaman Azərbaycanın yanındadır və Azərbaycan tək deyil. Bu, çox önəmli bəyanatlar idi və bizə əlavə mənəvi dəstəyin göstərilməsi bir daha Türkiyə-Azərbaycan birliyinin təzahürüdür.

Hörmətli Binəli bəy, biz sizinlə bərabər bu tarixi birlikdə yaşamışıq. Yaxşı bilirik, nə qədər böyük səylər göstərildi ki, Türkiyə və Azərbaycan bir-birinə daha da yaxın olsun. Çox önəmli layihələrin, sizin də rəhbərlik etdiyiniz Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin həyata keçirilməsi onların sırasında mühüm yer tutur. Bundan sonra digər layihələr də olacaq. İnşallah, bundan sonra da uğurlu işbirliyimiz davam edəcəkdir.

**Türkiyənin keçmiş Baş Naziri Binəli Yıldırım deyib:** - Təbii ki, Türkiyə olaraq biz Azərbaycanın bu haqlı mübarizəsində əvvəldən bəri daim onun yanındayıq. Heydər Əliyev cənablarının “Bir millət, iki dövlət” şüarını o gündən bu günədək davam etdiririk. Bilirik ki, Dağlıq Qarabağ məsələsində Siz yerdən göyə qədər haqlısınız. Çünki Azərbaycan bu müharibədə öz torpaqlarını işğalçılardan təmizləyir.

# Hikmət Hacıyev: Ermənistan XİN-in açıqlamasında mülki vətəndaşlarımıza qarşı yeni müharibə cinayətləri üçün zəmin hazırlandığı açıq görünür

Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş Ağdam rayonunun kəndlərini ağır artilleriyadan atəşə tutur.



Bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün “Twitter” hesabında bildirib.

Hikmət Hacıyev qeyd edib ki, Ermənistanın Xarici İşlər Nazirliyinin açıqlamasında onların Azərbaycanın mülki vətəndaşlarına qarşı yeni müharibə cinayətləri törətmək üçün zəmin hazırladıqları aydın görünür.

# Cəbhədə noyabrın 4-nə olan son vəziyyət

Noyabrın 3-ü gün ərzində və 4-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Döyüş əməliyyatları müxtəlif intensivliklə, əsasən cəbhənin Tərtər, Ağdam, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 3 ədəd D-30 haubitsa topu, 1 ədəd “Zastava M-55” zenit qurğusu, 1 ədəd taktiki PUA-sı, 3 ədəd hərbi yük maşını məhv edilib və sıradan çıxarılıb. Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

# “Bizim işimiz haqq işidir, biz öz ərazi bütövlüyümüzü bərpa edirik, öz ərazimizdə müharibə aparırıq”



Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi, Türkiyənin Odalar və Borsalar Birliyinin prezidenti Mustafa Rifatı, Özbəkistanın Ticarət və Sənaye Palatasının sədri Adham İkramovu və Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidenti Marat Şarşekeyevi qəbul edərkən söyləyib.

**O, deyib:**

- Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Ticarət və Sənaye Palatasının Bakıdakı toplantısı çox əlamətdar hadisədir. Nəzərə alsaq ki, Azərbaycan hazırda Vətən müharibəsi aparır, bu toplantının xüsusi önəmi vardır. Biz bunu bizə göstərilən dəstək və həmrəylik əlaməti kimi qəbul edirik, buna görə sizə təşəkkür edirik. Bu, növbədənkənar toplantıdır və bunun əsas məqsədi ölkəmizə mənəvi dəstəyin göstərilməsidir.

Müharibənin ilk günlərindən biz Türkiyənin və digər qardaş, dost ölkələrin dəstəyini hiss edirik. Bildiyiniz kimi, Türkiyə Respublikasının Prezidenti, mənim əziz qardaşım bizə ilk dəstək verdi, çox əhəmiyyətli bəyanatlar verdi. Demişdi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır. Ondan sonra digər dost, qardaş ölkələrin dövlət və hökumət başçıları – Pakistan, Əfqanıstan və digər dövlətlərin dövlət və hökumət başçıları bizə dəstək göstərdilər. Şadam ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası bizə dəstək göstərmişdir və Şuranın çox önəmli bəyanatı olmuşdur. Bu, türkdilli ölkələr arasındakı birliyin, həmrəyliyin təzahürüdür. Eyni zamanda, deyə bilərəm ki, Azərbaycan dünya miqyasında da çox böyük dəstək almışdır. Qoşulmama Hərəkatı 120 ölkəni özündə birləşdirən, BMT-dən sonra ikinci böyük beynəlxalq təsisatdır və İslam Əməkdaşlıq Təşkilatı da bizə dəstək göstərmişdir. Bu, əlbəttə, bir daha onu göstərir ki, bizim işimiz haqq işidir, biz öz ərazi bütövlüyümüzü bərpa edirik, öz ərazimizdə müharibə aparırıq, eyni zamanda, bu təşkilatlarda cəmləşən ölkələrin Azərbaycana olan münasibətinin əlamətidir.

Bir aydan çoxdur ki, müharibə gedir. Biz işğalçılara dərs veririk, onları torpaqlarımızdan qovuruq. Artıq bir çox yaşayış məntəqəsi işğaldan azad edilibdir. Hər həftə onlarla yeni yaşayış məntəqəsi - şəhərlər, kəndlər, qəsəbələr işğalçılardan azad edilir və Müzəffər Azərbaycan Ordusu öz uğurlu əməliyyatlarını davam etdirir.

İşğal edilmiş ərazilərdə vəziyyət acınacaqlıdır. Bizim bütün tarixi, dini abidələrimiz dağıdılıb, təhqir edilib. Ermənilər Zəngilan rayonunda, işğal edilmiş ərazilərdəki məsciddə donuz saxlayırdılar, bu videogörüntülər internetdə var və bu, bütün müsəlman aləmini hiddətləndirir. Bu, bir daha onu göstərir ki, Ermənistan dövləti bütün müsəlman aləminə nifrətlə yanaşır, əks-təqdirdə belə alçaq hərəkətlər baş verməzdi. Əlbəttə ki, bütün müsəlman dünyası bir daha görür ki, biz hansı vəhşi düşmənlə üz-üzəyik. Döyüş meydanında bizim qabağımızda dayana bilməyən Ermənistan şəhərlərimizi, kəndlərimizi hər gün atəşə tutur. **Bu gün səhər mənə verilən məlumata görə səhər saat 6-dan bizim şəhər və kəndlərimizə 200-dən çox mərmi atılıbdır. Bu bir ay ərzində namərd atəş nəticəsində 91 mülki şəxs həlak olub, onlardan 10-u uşaqdır, 404 mülki şəxs yaralanıbdır və 2 mindən çox ev dağılıbdır. Ermənistan maksimum çox insanı öldürmək üçün qadağan olunmuş silahlardan istifadə edir. Bizim isə intiqamımız döyüş meydanındadır. Bunu mən dəfələrlə bildirmişdim, demişdim ki, biz intiqamımızı döyüş meydanında alacağıq və alırıq.**

Bununla yanaşı, mən dəfələrlə demişəm və bu, mənim mövqeyimdir, əgər Ermənistan, misal üçün, bu gün atəşi dayandırsa və danışıqlar masası arxasında konstruktiv mövqe nümayiş etdirsə, qalan torpaqlarımızdan qoşunların çıxarılması ilə bağlı üzərinə konkret öhdəlik götürsə, biz dayanmağa hazırıq. Biz hesab edirik ki, münaqişənin hərbi həlli siyasi müstəviyə keçməlidir və biz buna hazırıq. Ümid edirəm ki, Ermənistanın acı məğlubiyyəti onları vadar edəcək ki, onlar çox ciddi düşünərək bu qərara gəlsinlər.

Ancaq biz bunun əksini görürük. Ermənistan baş naziri Rusiya Prezidentinə məktub göndərir və hərbi yardım istəyir. Bu, tamamilə qəbuledilməzdir. Buna heç bir əsas yoxdur. Biz öz torpağımızda düşməni əzirik, vururuq və torpaqlarımızdan çıxarırıq. Biz Ermənistana hər hansı bir təcavüz etməmişik. Bu birincisi. İkincisi, Rusiya Minsk qrupunun həmsədr ölkəsidir, bütün həmsədrlər kimi neytral mövqedə olmalıdır və həmsədrlərin, əslində, ATƏT tərəfindən onlara verilmiş mandatı bunu tələb edir. **Paşinyanın bu məktubu göndərməsi onun əslində, etirafıdır. Etiraf edib ki, Ermənistan məğlub olub. Hesab edirəm ki, bu etiraf Ermənistan cəmiyyətində də ciddi təhlil olunmalıdır və Ermənistan rəhbərliyinə ciddi təzyiq edilməlidir ki, bu müharibə dayandırılsın, işğalçılar bizim torpaqlarımızdan çıxsın və bölgədə sülh təmin edilsin.**

Görüşdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev, Türkiyənin Odalar və Borsalar Birliyinin prezidenti Mustafa Rifat, Özbəkistanın Ticarət və Sənaye Palatasının sədri Adham İkramov və Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidenti Marat Şarşekeyev bu günlərdə öz ölkələrinin Azərbaycanla həmrəy olduqlarını bir daha ifadə ediblər.

# BERNAMA agentliyi: Azərbaycan beynəlxalq səviyyədə böyük dəstək qazanır

Malayziyanın BERNAMA Milli İnformasiya Agentliyi Azərbaycanın Ermənistan Ordusu tərəfindən işğal edilmiş ərazilərinin azad edilməsi ilə əlaqədar apardığı hərbi əməliyyatların beynəlxalq səviyyədə dəstək qazanması barədə məqalə yayıb.




Məqalədə hazırda Ermənistan və Azərbaycan arasında müharibə getdiyi qeyd olunaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qətiyyətli siyasi mövqeyini əks etdirən vacib məqamlara yer verilib. Dövlətimizin başçısının noyabrın 2-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev və Türkiyə, Özbəkistan və Qırğızıstanın ticarət və sənaye palatalarının rəhbərləri ilə keçirdiyi görüşdə səsləndirdiyi fikirlər malayziyalı oxuculara çatdırılıb. Qeyd olunub ki, Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzkarlığı müqabilində Azərbaycanın həyata keçirdiyi hərbi əməliyyat dünya miqyasında çox böyük dəstək alıb. BMT-dən sonra ikinci böyük beynəlxalq təsisat olan və özündə 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatı, eləcə də İslam Əməkdaşlıq Təşkilatı Azərbaycana dəstək nümayiş etdirib. Həmçinin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası tərəfindən də Azərbaycana dəstək göstərildiyi, bu məqsədlə önəmli məqamları özündə əks etdirən bəyanatın qəbul edildiyi bildirilib.

Eyni zamanda, məqalədə Azərbaycan Prezidentinə istinad edilərək, Ermənistan-Azərbaycan müharibəsinin artıq bir aydan çox müddətdən bəri davam etdiyi, bu dövr ərzində Azərbaycanın işğal altında olan bir çox yaşayış məntəqəsinin düşməndən azad olunduğu vurğulanıb. Prezident İlham Əliyevin nitqindən aşağıdakı sitat yer verilib: “Biz işğalçılara dərs veririk, onları torpaqlarımızdan qovuruq. Artıq bir çox yaşayış məntəqəsi işğaldan azad edilibdir. Hər həftə onlarla yeni yaşayış məntəqəsi - şəhərlər, kəndlər, qəsəbələr işğalçılardan azad edilir və Müzəffər Azərbaycan Ordusu öz uğurlu əməliyyatlarını davam etdirir”.

Məqalənin sonunda Ermənistan-Azərbaycan münaqişəsinin tarixi barədə qısa məlumat verilərək, işğal altındakı Dağlıq Qarabağ və ətraf rayonların beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın tərkib hissəsi kimi tanındığı vurğulanıb.

# Azərbaycan sahibkarı Ali Baş Komandanın müsəlləh əsgəridir




Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin başçılığı altında müzəffər ordumuzun qazandığı parlaq zəfərlər xalqımızı qalibiyyət əhval-ruhiyyəsinə kökləyib və Azərbaycan cəmiyyəti qələbə ovqatındadır. Hərbçilərimizin apardıqları uğurlu əməliyyatlar nəticəsində Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərləri, Hadrut qəsəbəsi, onlarca kənd, eləcə də strateji yüksəkliklər, o cümlədən Murovdağ zirvəsi, Suqovuşan su anbarı işğalçılardan azad edilib.

On minlərlə soydaşımız illərdir daş kimi qəlbimizdən asılmış məcburi köçkün adı ilə vidalaşır. Artıq hamı 30 ilə yaxındır ki, həsrətlə gözlədiyi Böyük Qələbənin çox yaxında olduğuna əmindir. Şanlı Ordumuz cəbhədən gələn hər zəfər xəbərləri ilə bizi addım-addım arzularımızdakı o günə yaxınlaşdırır.

Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 17 ildə xüsusi diqqət mərkəzində saxladığı məsələlərdən biri də ordu quruculuğu olub. Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı bir vaxtda qarşımızda dayanan əsas vəzifələrdən biri ordunun gücləndirilməsi, döyüş qabiliyyətinin artırılması, modernləşməsi, ən son hərbi texnologiyalara yiyələnməsi idi. Odur ki, Azərbaycanın maliyyə imkanlarının artması nəticəsində bu dövrdə ordumuzun döyüş qabiliyyətinin artırılması üçün qabaqcıl dövlətlərlə uğurlu əməkdaşlıq həyata keçirilib. Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə dövlət-xalq-ordu həmrəyliyi və lider ətrafında milli birlik daha da güclənib.

Bu ilin iyul ayının ortalarında Tovuz istiqamətindən dövlət sərhədimizi ağır artilleriyalarla kobudcasına pozaraq, dinc və mülki əhalini, eləcə də sıravi əsgərimizdən generalımızadək terrora məruz qoyan təcavüzkar Ermənistanın sentyabrın 27-də yenidən törətdiyi təxribata cavab vermək üçün Silahlı Qüvvələrimiz hazır vəziyyətdə olduğunu sübut etdi. Ali Baş Komandanın hər bir əmrinə hazır olan, onun ətrafında yumruq kimi birləşən xalqımızın, o cümlədən sahibkarların ordumuzla həmrəyliyinin bir daha şahidi olduq.

Məlum olduğu kimi, "Hərbi vəziyyət elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2020-ci il tarixli fərmanının həyata keçirilməsi ilə əlaqədar ölkədə qismən səfərbərlik elan edilmişdir. Azərbaycan vətəndaşları ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmək üçün bugünəcən böyük coşqu ilə müraciət edirlər. Bu hal onu göstərir ki, xalqımız Ali Baş Komandanın rəhbərliyi ilə aparılan Vətən savaşına görünməmiş ruh yüksəkliyi ilə qoşulur.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnamədə erməni silahlı qüvvələrinin Azərbaycanın işğal altındakı torpaqlarından tam, dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunduğuna baxmayaraq, Ermənistan 30 ilə yaxındır ki, bu qətnamələrə məhəl qoymurdu. Bu illər ərzində Azərbaycan məsələnin sülh yolu ilə həllinə tərəfdar olub, yarandığı vaxtdan bu günədək ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlarda konstruktiv mövqe nümayiş etdirib. Ermənistan tərəfi isə müxtəlif bəhanələrlə danışıqları məqsədyönlü şəkildə pozub və bu gün də pozmaqdadır. Sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində Azərbaycanın münaqişə zonasına aid olmayan yaşayış məntəqələrinin - Gəncə, Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu, Mingəçevir, Naftalan, Xızı, Abşeron, Goranboy, Daşkəsən, Tərtər, Bərdə, Ağcabədi, Yevlax, Beyləqan və Qəbələ kimi şəhər və rayonların mütəmadi olaraq ağır artilleriya və raket atəşinə məruz qalması bunun təsdiqidir.

Ermənistan silahlı qüvvələri atəşkəs razılaşmasına məhəl qoymayaraq, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə iki dəfə ballistik raket zərbəsi endirib, nəticədə 23 mülki şəxs həlak olub, 82 nəfər yaralanıb, onlarca mülki obyekt və yaşayış binası dağılıb. Ümumiyyətlə, sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələrinin ağır artilleriya və raket zərbələri nəticəsində 63 mülki şəxs (o cümlədən uşaqlar və qadınlar) həlak olub, 300-ə yaxın insan yaralanıb, 1800 yaşayış evi, 100-ə yaxın çoxmənzilli yaşayış binası dağıdılıb, 300-dən çox mülki obyektə ciddi zərər dəyib. Bütün bunlar işğalçı Ermənistanın beynəlxalq hüquq normalarını və humanitar prinsipləri, o cümlədən Cenevrə konvensiyalarını pozduğunu göstərir.

Hazırda Ali Baş Komandanın rəhbərliyi ilə xilaskar Azərbaycan Ordusu işğalçılara sarsıdıcı zərbələr endirir, separatçıları və terrorçuları işğal etdikləri yaşayış məntəqələrimizdən qovaraq ərazi bütövlüyümüzü bərpa edir. Bu günədək Azərbaycan Silahlı Qüvvələri tərəfindən Azərbaycanın 4 şəhəri, 3 qəsəbəsi və 150-dən çox kəndi işğaldan tam azad olunmuşdur.

Beynəlxalq ictimaiyyət Azərbaycanın ədalətli mübarizəsini müdafiə edir, Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi istiqamətində apardığımız haqlı əks-hücum əməliyyatı bir sıra ölkələr və beynəlxalq təşkilatlar, xüsusilə Türkiyə Respublikası tərəfindən dəstəklənir.

Azərbaycan Sahibkarlar Konfederasiyasına Türk Şurasından, Türk Ticarət və Sənaye Palatasından, İtaliya-Azərbaycan Ticarət Palatasından, Beynəlxalq Sənayeçilər və Sahibkarlar Konqresindən və digər beynəlxalq təşkilatlardan dəstək məktubları daxil olmuşdur. Məktublarda sentyabrın 27-dən Dağlıq Qarabağ ətrafında aparılan əməliyyatların beynəlxalq təşkilatlar tərəfindən diqqətlə izlənildiyi və Ermənistanın bölgədəki sülh danışıqlarını pozmaq təxribatlarının qətiyyətlə pislənildiyi bildirilir. Qeyd olunur ki, bu təxribatlar beynəlxalq hüququ açıq şəkildə tapdalayır: "Mülki əhali arasında itkilərə yol açan həmin təxribatları şiddətlə qınayırıq və Ermənistanın bu təxribatçı hərəkətlərilə bölgədə sülh və əmin-amanlıq üçün əsas təhlükə olduğunu bir daha ictimaiyyətin diqqətinə çatdırırıq".

Qeyd olunanlarla yanaşı, Dağlıq Qarabağ ətrafında baş verən hadisələr, xüsusilə Ermənistan tərəfindən Gəncə şəhərinə təşkil edilmiş terror hücumu haqqında həqiqətin dünya ictimaiyyətinə çatdırılmasını təmin etmək məqsədilə Azərbaycan Sahibkarlar Konfederasiyası xarici ölkələrdə fəaliyyət göstərən nümayəndəliklərinə və beynəlxalq təşkilatlara 64-dən çox müraciət məktubları göndərmişdir. Eyni zamanda, bu hadisələrlə bağlı Azərbaycan Sahibkarlar Konfederasiyasının xarici ölkələrdəki rəsmi nümayəndələri öz şəxsi "Facebook" və "Twitter" hesabları vasitəsilə həmin ölkələrdəki vətəndaşları məlumatlandırırlar.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan Ordusunun cəbhədəki uğurlu əməliyyatları, torpaqlarımızın işğaldan azad edilməsi təkcə bizim yox, xaricdə yaşayan soydaşlarımız, xüsusən qardaş Türkiyənin vətəndaşları tərəfindən də böyük sevinclə qarşılanır. Onlar sevinc hisslərini Prezident, Ali Baş Komandan İlham Əliyevə ünvanladıqları məktublarda ifadə edirlər.

Azərbaycan Sahibkarlar Konfederasiyası da Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü ilə bağlı bəyanat vermişdir. Bu bəyanatdan sonra Azərbaycan sahibkarlarından konfederasiyaya daxil olan müraciətlərdə iş adamlarımız Ali Baş Komandan cənab İlham Əliyevin, ordumuzun, qəhrəman əsgərlərimizin yanında olduqlarını bəyan edir, onlara dəstək olmaq istədiklərini bildirirlər. Dönə-dönə əmin olduqlarını söyləyirlər ki, xalqımız, o cümlədən çoxminli sahibkarlar ordusu Azərbaycan Respublikası Prezidentinin hərbi vəziyyət elan olunması ilə bağlı fərmanının bütün tələblərinə əməl edərək, qələbə üçün bütün imkanları səfərbər ediblər.

Bəli, bu gün Azərbaycanın iş adamları, o cümlədən qadın sahibkarlar Qarabağ bölgəsində hərbi əməliyyatları uğurla aparan Silahlı Qüvvələrimizə hər cür dəstək verərək, işlərini bu günün reallığına uyğun qururlar. Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına daxil olan müraciətlərdə də sahibkarlar Ali Baş Komandan İlham Əliyevin, ordumuzun, qəhrəman əsgərlərimizin yanında olduqlarını bəyan edir, dövlətimizə bu Vətən savaşında daim dəstək olacaqlarını vurğulayırlar.

Azərbaycan Sahibkarlar Konfederasiyası sahibkarlardan daxil olan müraciətləri nəzərə alaraq, iş adamları tərəfindən göstərilən maliyyə yardımlarının operativ və vahid mərkəzdən idarə olunmasını təmin etmək məqsədilə üzv sahibkarlara müraciət etməyi qərara almışdır. Mətni mətbuatda dərc edilərək geniş ictimaiyyətə çatdırılmış müraciətdə bildirilir: "Ölkə sahibkarları Azərbaycan Respublikası Prezidentinin hərbi vəziyyət elan olunması ilə bağlı fərmanının bütün tələblərinə əməl edərək, qələbə üçün bütün imkanları səfərbər edirlər. Hazırda bütün ölkə vətəndaşları kimi iş adamlarımızın da qəlbi Qarabağda ordumuzla birlikdə döyünür. Odur ki, dəstək aksiyasına qoşulmaq istəyən sahibkarlarımız Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə nəzərdə tutulan yardımları ilə bağlı yarana biləcək hər hansı suala operativ cavab almaq üçün Azərbaycan Sahibkarlar Konfederasiyasının "qaynar xətt"inə zəng edə bilərlər". Bundan əlavə, sahibkarların diqqətinə "Silahlı Qüvvələrə Yardım Fondu"nun bank rekvizitləri təqdim edilmişdir.

Azərbaycan biznes mühitinin əlverişliliyi, sahibkarların rahat işləməsi üçün ən çox islahatlar aparan ölkələrdən biridir. Post-neft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ölkənin ixrac potensialının yüksəldilməsi üçün rəqabət qabiliyyətli mal və məhsulların istehsal olunması məqsədilə hökumət sahibkarlar üçün böyük imkanlar yaratmışdır. Biz bunu təsadüfən qeyd etmədik. Məsələ bundadır ki, sentyabrın 27-dən başlayaraq cəbhəyanı bölgələrdə yerləşən mülki obyektlərlə yanaşı, çoxsaylı sahibkarlıq obyektləri də düşmən zərbələrinə məruz qalıb. Son məlumata görə, həmin ərazilərdə qeydiyyatda olan bir sıra vergi ödəyicilərinin təsərrüfat subyektlərinə, əmlaklarına külli miqdarda zərər dəyib, onların sahibkarlıq fəaliyyəti tamamilə dayanıb və ya əhəmiyyətli dərəcədə maliyyə itkiləri olub.

İşğal altında olan rayonlarda və cəbhəyanı ərazilərdə qeydiyyatda olan kiçik sahibkarlıq subyektlərinə baş vermiş hadisələr nəticəsində dəymiş maddi zərərin təsirinin azaldılması, sahibkarlıq fəaliyyətinin davamlılığının təmin edilməsi məqsədilə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti "İnzibati icraat haqqında" Qanunun müddəalarına uyğun olaraq müvafiq qərar qəbul etmişdir. Belə ki, həmin vergi ödəyiciləri üzrə maliyyə sanksiyalarının tətbiqini nəzərdə tutan qərarlar tam şəkildə, səyyar vergi yoxlamalarının nəticəsi üzrə qəbul olunmuş qərarların isə maliyyə sanksiyasının tətbiq hissəsi ləğv edilib.

Qəbul edilmiş qərarla 2013 vergi ödəyicisinin 6,5 milyon, o cümlədən tam və qismən işğal altında olan rayonlar üzrə 191 vergi ödəyicisinin 103 min, cəbhəyanı rayonlar üzrə isə 1822 vergi ödəyicisinin 6,4 milyon manat məbləğində maliyyə sanksiyası ləğv olunmuşdur.

Hazırda işğaldan azad olunmuş regionlarda infrastrukturun qurulması, tikinti-abadlıq işlərinin aparılması, kiçik və orta sahibkarlığın inkişafına dəstək göstərilməsi istiqamətində hazırlıq işləri görülür, yeni layihələr hazırlanır və yaxın zamanlarda bu layihələrin həyata keçirilməsi üçün biz də Sahibkarlar Konfederasiyası olaraq bütün imkanlarımızı səfərbər edəcəyik. Bütün bunları nəzərə alan hər bir sahibkar anlayır ki, Azərbaycanın tərəqqisi və gələcək inkişafı üçün həyata keçirilən genişmiqyaslı tədbirlərdə yaxından iştirak etməlidirlər.

Biz isə Azərbaycan Sahibkarlar Konfederasiyası kimi, Dağlıq Qarabağda davam edən gərgin hərbi əməliyyatlar dövründə həmrəylik nümayiş etdirərək, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında yeni-yeni iqtisadi uğurlara nail olacağımıza inanır və xalqımızı əmin edirik ki, dövlətimizin daha da güclənməsi, rəqabətə davamlı istehsalın genişləndirilməsi, dünya miqyasında nüfuzunun daha da artması üçün bütün gücümüzü səfərbər edəcək, əlverişli biznes mühitindən yararlanmaqla ölkəmizin daha da çiçəklənməsi, əhalinin rifah halının yaxşılaşması üçün var gücümüzlə çalışacağıq.

**Məmməd MUSAYEV,**
**Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Prezidenti**



# "Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik"

*Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Almaniyanın ARD televiziya kanalına müsahibə verərkən deyib.*

*Müsahibəni təqdim edirik.*

**- Sentyabrın 27-də müharibə başladı. Sizin, "kim birinci atəş açdı" sualına cavabınız nədir?**

- Cavab, Ermənistandır və bizim sübutlarımız var. Çünki mülki şəxslər və hərbçilər arasında ilk qurbanlar azərbaycanlılar idi. Bu, bizə qarşı ardıcıl surətdə üçüncü hərbi təxribat idi. Birinci, iyul ayında törədildi. O zaman onlar Ermənistan-Azərbaycan sərhədinə hücum etdilər. Bizim mülki şəxslər və hərbi qulluqçular arasında itkilərimiz olmuşdur. İkinci cəhd avqust ayında baş vermişdir. Ermənistan diversiya qrupu göndərmişdir, onun başçısı tərəfimizdən saxlanılmışdır və o, ifadə vermişdir ki, mülki şəxslərə hücum etmək üçün göndərilmişdir. Üçüncü dəfə sentyabrın 27-də onlar təmas xəttinə yaxın yerləşən bəzi şəhər və kəndləri ağır artilleriya bombardmanına tutdular. Biz cavab verdik və bu, belə başlamışdır.



**- Siz çox tutarlı və sərt cavab verdiniz. Nə üçün bu dəfə belə etdiniz? Bu, İsrail və Türkiyə dronlarına görə Azərbaycan Ordusunun üstün qüvvəyə malik olduğu üçün baş verdi?**

- İsrail dronları bizdə artıq uzun illərdir ki, var. Yeri gəlmişkən, onların bəziləri Ermənistanın işğal olunmuş bəzi torpaqlarımızın işğaldan azad edilməsi zamanı başladığı təxribata qarşı 2016-cı ildə istifadə olunmuşdur. Lakin o toqquşma Ermənistan dayandığına görə bir neçə gün davam etdi. Onlar bu dəfə də dayansaydılar, biz də dayanardıq. Lakin onlar dayanmadılar. Onlar bizə böyük ziyan vurmaq istəyirdilər. Onlar təmas xəttindən çox uzaqda yerləşən şəhərlərə raket atmağa başladılar və bizim mülki şəxslər arasında çoxlu qurbanlarımız var - bu vaxtadək 69 nəfər. Odur ki, biz özümüzü, xalqımızı müdafiə etməli və cavab verməli idik. Bizim cavabımız sərt idi, amma onlar buna layiq idilər.

**- Başa düşdüyümə görə Siz xüsusilə cənubda müəyyən torpaqları azad etmisiniz, lakin, eyni zamanda, Dağlıq Qarabağa yaxın, şimalda da. Bu müharibə nə qədər davam edəcək?**

- Bu, Ermənistandan asılıdır. Mən bunu dəfələrlə demişəm. Biz bu gün dayanmağa hazırıq. Yeri gəlmişkən, bizim üç dəfə atəşkəsə razı olmağımız faktı hərbi toqquşmaları dayandırmaq və bu məsələni danışıqlar masasında, siyasi yolla həll etmək iradəmizi nümayiş etdirir. Lakin Ermənistan üç dəfə atəşkəsi kobud şəkildə pozmuşdur.

**- Onlar da eyni sözləri deyirlər.**

- Bəli, əlbəttə ki, onlar deyirlər. Lakin baxın, görün nələr baş verib. Oktyabrın 10-da humanitar atəşkəs elan olunmuşdu. Növbəti gün onlar Ermənistan ərazisindən Gəncəyə ballistik raket atdılar. Yəqin ki, siz bunun səbəb olduğu dağıntıları görmüsünüz və 10 mülki şəxs öldürülmüşdür. Onlar deyirlər ki, bunu onlar etməyiblər. Lakin bu, açıq-aydındır, çünki ballistik raketlərin buraxılışı peyk vasitəsilə müşahidə edilir. Beləliklə, Minsk qrupunun üç həmsədr ölkəsi, əlbəttə ki, bunu kimin etdiyini bilirlər. İkinci dəfə onlar eyni şeyi etdilər. Onlar atəşkəs elan olunduqdan 2 dəqiqə sonra onu pozdular. Üçüncü dəfə isə onlar dünən Bərdəyə kasetli raket atanda bunu etdilər. Dörd nəfər öldürülmüşdür, onların arasında yeddi yaşlı bir qız var. Beləliklə, bunu onlar ediblər. Bunu bizim etdiyimizə dair heç bir sübut yoxdur. Bizim etdiyimiz bunun əksidir. Mən demişdim ki, biz eyni qaydada cavab verməyəcəyik. Biz onlara döyüş meydanında cavab verəcəyik. Biz şəhərlərə, mülki şəxslərə hücum etmirik, yalnız döyüş meydanında cavab veririk. Əlbəttə, biz özümüzü müdafiə etməliyik. Əgər onlar hücum edirlərsə, əgər onlar itirdikləri mövqeləri geri almaq istəyirlərsə, biz sakit dura bilmərik. Biz özümüzü müdafiə etməliyik. Biz nə qədər çox müdafiə olunuruqsa, daha çox əraziləri azad edirik.

**- Bu, eyni ilə onların iddia etdiyi məsələlərdir. Onlar iddia edirlər ki, Siz kasetli raketlərdən istifadə edirsiniz. Hətta Sizin orada və Dağlıq Qarabağda kasetli raketlərdən istifadə etdiyinizə dair "Amnesty International" və "Human Rights Watch" təşkilatlarından bəzi dəlillər var idi. Nəyə görə Siz bu növ silahlardan istifadə edirsiniz?**

- Biz onlardan istifadə etmirik. Biz özümüzü müdafiə edirik. Biz "Amnesty International" və "Human Rights Watch" təşkilatlarını Azərbaycana dəvət etmişik. Əfsuslar olsun ki, onlar hadisələri yalnız Ermənistan tərəfindən işıqlandırırlar. Onlar bura gəlmək üçün bizə müraciət etməyiblər. Ona görə bizdə onların qərəzliliyi ilə bağlı böyük şübhələr var.

- Lakin mənim indi bildiyimə görə onlar gəlirlər. "Human Rights Watch" təşkilatı gəlir, mənə deyiblər.

**- Onlar bizim "Nəyə görə buraya gəlmirsiniz?" dediyimizə görə gəlirlər. Biz onlara "xahiş edirik, buraya gəlin" müraciətini etdikdən sonra onlar gəlməyə razılıq verdilər. Lakin onlar birinci növbədə niyə gəlmədilər?**

- Onlar mənə gəlmək istədiklərini deyiblər. Bir neçə dəfə müraciət ediblər, lakin Siz onlara girişə icazə verməyibsiniz.

- Xeyr. Bu, mümkün deyil. Çünki biz elə dünən onların nəyə görə gəlmədiklərini, qoyun, gəlsinlər Gəncəyə, Tərtərə getsinlər demişik. Ermənilərin hücum etdiyi insanlarla görüşsünlər. Yenə də ballistik mərminin buraxılışı peykdən görünür. Heç kim deyə bilməz ki, biz Dağlıq Qarabağda və ya Ermənistanda mülki şəxslərin yaşadığı istənilən yerə ballistik raket atmışıq.

**- Gəlin, yenə Sizdən kasetli silahlarla bağlı soruşum. Çünki Sizin də bildiyiniz kimi, bu, çox ciddi mövzudur. Mən "Human Rights Watch" təşkilatının araşdırmasına baxdım və sübut ondan ibarət idi ki, çox maraqlıdır, onların şəkilləri var idi, onlarda hətta silahın adı da var idi. Onların dediyinə görə, onun adı İsrail istehsalı olan LAR 160 kasetli bomba idi. Bu faktları həqiqətən də mübahisə predmetinə çevirirsiniz?**

- Bəli, əlbəttə ki. Bununla bağlı heç bir sübut yoxdur. Mən istərdim ki, onlar buraya gəlsinlər və o dəlilləri təqdim etsinlər. Eyni zamanda, Gəncə, Tərtər, Bərdəyə getsinlər və ermənilərin hansı növ silahlardan istifadə etdiklərini görsünlər. Qərəzsiz olsunlar...

**- Onlar burada silah tapsalar, Siz onların araşdırmasına güvənərsiniz?**

- Onlar bunu etmədilər. Çünki onların "yox" demək imkanı yoxdur. Qoyun, onlar desinlər. Çünki bu vaxtadək "Human Rights Watch" və "Amnesty International" təşkilatları Azərbaycana qarşı çox aqressiv idi. Onlar heç vaxt Ermənistanda insan haqlarının pozulması ilə bağlı heç bir şərh verməyiblər. Ermənistan həbsxanasında jurnalist öləndə onlar sakit idilər. Ermənistanın əsas müxalifət partiyasının rəhbəri həbs edildikdə onlar səssiz idilər. Sabiq prezidentlərin məhkəmə işi gedəndə onlar səssiz idilər. Onlar görmək istəmirlər. Çünki onların təşkilatlarında erməni əsilli insanlar var və bu təşkilatlardan əsasən Azərbaycanın imicinə xələl gətirmək üçün istifadə olunur. Lakin buna baxmayaraq, biz onları dəvət etdik, qoyun, onlar gəlsinlər və gördüklərini desinlər.

- Əslində, Siz heç vaxt BMT-nin kasetli silahları haqqında konvensiyasını imzalamayıbsınız. Nəyə görə, bu, Sizin üçün problemdir? Əslində, Siz ondan istifadə edə bilərdiniz.

**- Ermənistan onu imzalayıb?**

- Xeyr, lakin biz indi Ermənistandan deyil, Azərbaycandan danışırıq.

- Biz münaqişə haqqında danışırıq. Bizim hansısa konvensiyanı imzalamağımız və ya imzalamamağımız faktı bizim o silahdan istifadə etməyimiz və ya etməməyimiz anlamına gəlmir. Bizim kifayət qədər silah-sursatımız var. Bizim müasir silahlarımız var və biz onları döyüş meydanında nümayiş etdiririk. Bizim etdiklərimiz budur, biz əraziləri bombalara azad etmirik, biz əraziləri, kəndləri, şəhərləri bir-birinin ardınca işğaldan azad edən və Azərbaycan bayrağını ucaldan döyüşçülərimizlə azad edirik. Bu, belə edilir.

**- Bu mövzuya gəlmişkən, yeddi rayonun hamısını azad etmək, bundan sonra danışıqları aparmaq və Dağlıq Qarabağın muxtariyyət zonası ilə bağlı bir razılığa gəlmək məqsəd deyilmi?**

- Biz bunu təklif etdik. Lakin ermənilər bunu həmişə rədd ediblər. Minsk qrupunun həmsədrləri mənim dediklərimi təsdiqləyə bilərlər. Biz həmişə təklif edirdik, biz həmişə sülh planına, belə adlandırılan əsas prinsiplərə sadiq idik. Bu prinsiplər Azərbaycanın işğal edilmiş ərazilərinin mərhələlərlə boşaldılmasını nəzərdə tuturdu. Birinci mərhələdə beş rayon, ikinci mərhələdə iki rayon. Lakin indi bu beş rayonun, demək olar ki, hamısı işğaldan azad edilib. Buna görə Ermənistan həmişə buna qarşı olub. Səmimi söyləsək, əraziləri azad etdikdən sonra döyüş meydanında gördüklərimiz, orada qurulmuş istehkam qurğuları, - onlar bəlkə də bu qurğulara yüz milyonlarla dollar xərcləyiblər, - göstərir ki, onlar bu ərazilərdən çıxmağı planlaşdırmayıblar. Çünki əgər ərazilərdən çıxmağı planlaşdırsaydılar, bu qədər çox sərmayə yatırmazdılar. Müasir avadanlıq, müasir silahlar, müasir istehkam texnologiyası ilə təchiz olunmuş bir neçə müdafiə səddi var idi. Buna görə danışıqlar masasında onların bütün davranışı vasitəçiləri və bizi aldatmaq cəhdindən ibarət idi. Onlar danışıqları sonsuz edirdilər və vaxt qazanmaq istəyirdilər, onlar 27 il ərzində bunu nail ola bildilər. Buna görə, biz əsas prinsiplərə sadiqik. Yeddi rayon bizə qaytarılmalıdır. Ermənilər heç vaxt bu rayonlarda yaşamayıblar. Üstəgəl, Dağlıq Qarabağdan qovulmuş azərbaycanlılar, - müharibədən əvvəl Dağlıq Qarabağda Azərbaycan əsilli 40 min insan var idi, - oraya qayıtmalıdır və plan belə icra olunmalıdır.

**- Azərbaycanın heç bir təsiri olmadan muxtar rayon?**

- Bu, müzakirələrin bir hissəsi idi. Lakin biz bununla bağlı yekun razılığa gəlmədik.

**- Lakin Siz buna razılaşardınız?**

- Biz bunu indi müzakirə etməliyik. Çünki indi ortada yeni reallıq var. Biz həmişə eşitmişik ki...

**- Siz orada - muxtar regionda hansı təsirə malik olmaq istəyirsiniz? Bu, özü-özlüyündə ziddiyyət təşkil edir.**

- Xeyr. Əvvəla, biz heç bir muxtar rayon razılığına gəlməmişik. Bu, birincisi. Biz bu razılığa gəlməmişik. Biz bunu təklif edəndə ermənilər bunu rədd edirdilər. Onlar bizim razı olmadığımız müstəqillik tələb edirdilər. İndi ortalıqdakı reallıqlar dəyişib. Biz dəfələrlə eşitmişik ki, reallıqlar var və siz onları nəzərə almalısınız. Yaxşı. Biz dəyişdik reallıqları. İndi onlar bunları nəzərə almalıdır və bu, 27 il ərzində bizim onlara təklif etdiklərimiz ola bilsin, artıq öz qüvvəsini itirib. Ona görə indi biz müzakirələr aparmalıyıq və yeri gəlmişkən, Ermənistan hazır olduğu təqdirdə biz danışıqların yeni mərhələsinə başlamaq və danışıqlar masasında Dağlıq Qarabağın gələcəyini müzakirə etmək üçün Xarici İşlər nazirimizi sabah Cenevrəyə göndərməyə hazırıq. Lakin bunun üçün Ermənistan dayanmalıdır. Onlar bu aylar ərzində həmişə bizim azad etdiyimiz əraziləri geri almaq istəyiblər və bu da onların məğlubiyyətinin əsas səbəbidir.

**- Biz orada, bu ərazidə olduqda bizdə bir sual ortaya çıxdı. Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu, bir rəmzi məna daşıyır?**

- Elzas və Lataringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik.

**– Siz qəbul edirsiniz ki, bu regionda insanların əksəriyyəti dünya üzrə əksər tarixçilərin dediyi kimi, ermənilər olub?**

– Tarixə gəlincə, sizə deyə bilərəm ki, ermənilər bu regiona XIX əsrin əvvəlində Qarabağ xanlığı ilə Rusiya imperiyası arasında sülh sazişindən, - onu İbrahim Xəlil xan və rus generalı Sisianov imzalamışlar - sonra köçürülüb və ya gətirilib.

**– Onlar orada əsrlər boyu yaşamırlar?**

– Xeyr, xeyr. Onlar Dağlıq Qarabağa 1805-ci, 1813-cü, 1828-ci illərdə imzalanmış Kürəkçay, Gülüstan və Türkmənçay sülh sazişlərindən sonra köçürülməyə başlayıblar. İnternetdə görə bilərsiniz. Bu sazişlərdə ermənilər qeyd olunmur. Ermənilər sonradan Çar Rusiyası tərəfindən Şərqi Anadolu və İrandan regionun etnik və dini tərkibini dəyişdirmək məqsədilə gətiriliblər.

**– Belə çıxır ki, tarixçilərin, Qafqaz regionu üzrə ekspertlərin əksəriyyəti səhv edirlər?**

– Bəli, əlbəttə. Çünki sənədlərə baxın. Tarixçilər, hansı tarixçilər? Müxtəlif tarixçilər var və bəzən tarix siyasi üstünlüklərlə motivasiya olunur. Lakin həmin sənədlərə baxın, internetdə var və siz görə bilərsiniz. Əgər siz erməni əhali ilə bağlı hər hansı qeyd tapsanız, deyərsiniz ki, mən səhv edirəm. Beləliklə, bu, belə olub. Lakin digər məsələ ondan ibarətdir ki, bəli, onlar 200 il ərzində orada yaşayıblar və "Qarabağ" sözü Azərbaycan sözüdür, erməni sözü deyil. Siz bilirsiniz onlar Dağlıq Qarabağın qondarma paytaxtını necə adlandırırlar? Stepanakert. Bilirsiniz kimin şərəfinə adlandırılıb? Stepan Şaumyanın. Erməni əsilli rus bolşeviki Stepan Şaumyan 1918-ci ildə azərbaycanlılara qarşı soyqırımı törətmiş cinayətkar dəstənin rəhbəri idi. Əgər bu, qədim Ermənistan ərazisi idisə, niyə Qarabağ adlandırılır? Niyə paytaxt şəhər hansısa qədim adla deyil, Stepanakert adlanır? Çünki onlar orada 200 il yaşayıblar. 1978-ci ildə orada yaşayan ermənilər Dağlıq Qarabağa gəlişlərinin 150 illiyi münasibətilə abidə ucaltdılar. Bu, tarixdir. Lakin bir daha deyirəm, onlar 200 il boyunca yaşayıblar və biz onların yaşamağını istəyirik. Mən dəfələrlə demişəm ki, biz azərbaycanlıların geri qayıtmağını və ermənilərin 200 il boyunca tarixən yaşadıqları ərazidə yaşamağını istəyirik, nəyin bahasına olursa-olsun.

**– Buna baxmayaraq, bu insanlar Sizin hərbi əməliyyatlara, dedikləri kimi etnik təmizləməyə məruz qalırlar?**

– Xeyr, əslа. Biz etnik təmizləməyə məruz qalmışıq. Onlar Dağlıq Qarabağı və 7 ətraf rayonu işğal edəndə, bu 7 rayonda, o cümlədən Dağlıq Qarabağın bir hissəsi olan Şuşada 750 min azərbaycanlı etnik təmizləməyə məruz qaldı. Etnik təmizləməyə məruz qalan biz olmuşuq. Biz ermənilərə qarşı etnik təmizləmə aparmamışıq və bunu indi də etməyi planlaşdırmırıq. Çünki mən demişəm ki, biz birlikdə yaşamalıyıq. Bu, asan olmayacaq. Lakin biz öyrənməliyik.

**– Lakin indi orada, son bir neçə həftədə mülki şəxslər qətlə yetirilib?**

– Azərbaycanın da mülki şəxsləri qətlə yetirilib – 69 nəfər.

**– Orada da.**

– Bəli. Çünki bu, müharibədir. Lakin 69 mülki şəxs münaqişə zonasından uzaqda olan Gəncədə və digər ərazilərdə qətlə yetirilib, 300-dən çox mülki şəxs yaralanıb. Bu, müharibədir. Əfsuslar olsun ki, bu, olur.

**– Mən 5 il İsraildə yaşamışam. Yaxşı bilirəm ki, İsrail dronları çox dəqiqdir. Demək istəyirəm, mənim anladığım qədəri ilə bu, dron vasitəsilə edilməyib?**

– Xeyr.

**- Necə olub ki, Dağlıq Qarabağda kilsəyə zərbə endirilib.**

– Artıq qeyd etdiyim kimi, bu, ehtimal ki, bizim artilleriyanın səhvi olub və ya, ikinci variant o ola bilər ki, ermənilər bizi günahlandırmaq üçün bunu özləri ediblər.

**- Xristianlar öz kilsələrinə atəş açıblar?**

– Lakin bu, kiçik ziyan idi. Dağılmayıb. Siz oranın şəkillərini görmüsünüz? Kiçik ziyandır. Kilsə dağılmayıb. O, maksimum iki həftəyə təmir edilə bilər. Ona görə də, bizdə şübhə var ki, bu, bizi günahlandırmaq üçün onların özləri tərəfindən törədilmiş ola bilər. Bakıdakı erməni kilsəsinə baxın. Biz onu qoruyub saxlayırıq. Biz onu bərpa etmişik.

**- Belə bir şeyi uydurmaq üçün müsəlmanların məscidi dağıtmasını təsəvvürünüzə gətirə bilərsiniz?**

– Mən bilmirəm. Ola bilsin. Ola bilsin ki, bu, baş versin, niyə də yox. Burada, Bakıdakı erməni kilsəsi bizim tərəfimizdən qorunub saxlanıb. Biz onu dağıtmamışıq. Biz onu qoruyuruq. Biz orada minlərlə erməni kitabı saxlayırıq. Onlar isə işğaldan azad edilmiş Zəngilanda məsciddə donuz saxlayırdılar. Fərq bundadır.

– Mən bildiyimə görə, oktyabrın 1-də Azərbaycanda bir nəfər sülh tələb etdiyinə görə həbs olunub. Bəzi insan haqları ekspertləri, müdafiəçiləri deyirlər ki, Siz bu müharibəyə həm də xalqı ətrafınızda birləşdirmək, demokratiya və insan haqları ilə bağlı ölkədəki problemlərdən diqqəti yayındırmaq üçün başlamısınız.

**– Bu, tamamilə yanlış qiymətləndirmədir. Birincisi, mənim həbs olunan hər hansı şəxs barəsində məlumatım yoxdur. Əgər, adını deyə bilərsinizsə, əgər, sizdə adı varsa, mənə deyin. Sizdə adı var?**

– Hazırda məndə adı yoxdur, öyrənərəm.

– Öyrənəndə mənə deyərsiniz. Beləliklə, biz bu sualı etibarsız hesab edə bilərik, çünki sizdə ad yoxdur və məndə də bu məlumat yoxdur. Diqqətin yayındırılmasına gəlincə, diqqəti yayındırmağa ehtiyac yoxdur. Bizim siyasi sistemimiz sabitdir. Bu toqquşmadan əvvəl, hətta bizdə parlament seçkiləri keçirilməzdən əvvəl, mən siyasi əməkdaşlığın bir növ yeni prosesinə start verdim. Biz praktiki əməkdaşlığa başlamaq, düşmənçiliyə son qoymaq və ən azı bir-birimizlə danışmağa başlamaq üçün bütün siyasi partiyalara açıq müraciət etdik və iki partiyadan başqa bütün digər partiyalar, onların 50-si bunu dəstəklədi. Biz müasir, yeni siyasi prosesə başladıq. Hazırda parlamentimizdə çox sayda müxalifət üzvü var. Siyasi proses çox səmərəlidir.

**– Azərbaycanda bir çox müxalifət üzvləri də həbsdə deyilmi?**

– Xeyr, həbsdə olanlar törətdikləri cinayətlərə görə həbs ediliblər. Burada si-

yasi ittiham irəli sürülmüş heç kim yoxdur və müxalifət...

**– Nə cür cinayətlər? Öz fikirlərini ifadə etməklə bağlı?**

– Xeyr, müxtəlif cinayətlər. Hər hansı digər cinayət kimi. Mən dəqiq hansı olduğunu bilmirəm, amma bu, sadəcə olaraq, adi cinayətlərdir. Beləliklə, bizim bu cür səbəbimiz yoxdur. İkincisi, pandemiya dövründə bizim iqtisadi göstəricilərimiz ən yaxşılardan biridir. İqtisadiyyatımız cəmi 3,9 faiz azalıb. Bu, bəzi Avropa ölkələrində olduğundan xeyli aşağıdır. Azərbaycanda yoxsulluq səviyyəsi 5 faizdir, xeyli aşağı. İşsizlik səviyyəsi 7 faizdir, xeyli aşağı. Bizim konvertasiya oluna bilən valyuta ehtiyatlarımız xarici borcumuzdan 6 dəfə çoxdur. Bizdə daxili problemlər yoxdur, niyə mən buna başlamalıyam.

**– Siz Azərbaycanı demokratiya nümunəsi adlandırardınız?**

– Xeyr, heç vaxt. Siz öz ölkənizi demokratiya nümunəsi adlandırarsınız?

**– Müəyyən mənada, bəli.**

– Lakin siz müxalifətin nümayişlərinə qadağa qoyursunuz.

**– Xeyr, belə deyil.**

– Bəli, bəli. Nümayiş keçirmək istəyən ekstremist - adını unutmuşam. Siz onlara qadağa qoydunuz.

**– Mən bu barədə bilmirəm. Demək istəyirəm ki, hətta koronavirus dövründə də etirazlar keçirirdilər.**

– Xeyr, koronavirus dövründən əvvəl idi. Biz nümunə deyilik və özümüzü bu cür göstərmirik. Lakin özlərini sanki belə göstərən ölkələr var, amma onlar etirazçıları qətlə yetirirlər. Siz "sarı jiletlilərin" etirazlarında neçə nəfərin qətlə yetirildiyini bilirsinizmi? Bilirsiniz, 10-dan çox adam qətlə yetirilib.

– Amma biz Fransa barədə danışmırıq.

– Xeyr, gəlin, Avropa barədə danışaq.

**– Azərbaycan barədə...**

– Xeyr, gəlin özlərini guya demokratmış kimi aparanlardan danışaq. Biz özümüzü elə aparmırıq. Bəli, bizim çatışmazlıqlarımız var.

**– Mən cənab Makrondan bu barədə soruşaram.**

– Lakin etirazçılar qətlə yetirilirlər, küçədə etirazçıları qətlə yetirirlər – 10 nəfər qətlə yetirilmişdi. Biz sizin Avropada etirazçıları necə döydüyünüzə baxırıq, siz onları atlarla döyürsünüz, itləri gətirirsiniz və bu, demokratiya hesab olunur.

**– Hazırda gəldiyim ölkə - Türkiyə bu hərbi əməliyyatlarda, bu müharibədə Sizin üçün nə dərəcədə əhəmiyyət kəsb edir?** Burada türk əsgərləri var idi. Dünən biz onlardan bəziləri ilə söhbət etdik. Onlar Türkiyədən olduqlarını dedilər.

– Siz əsgərlərlə danışmısınız?

– Bəli.

**– Döyüş meydanında?**

– Xeyr, döyüş meydanında yox.

**– Bəs harada?**

– Bakı şəhərində.

**– Onlar burada, Bakıda döyüşürlər?**

– Xeyr, xeyr. Bununla belə, onlar buradadırlar.

**– İndi burada alman əsgərləri də ola bilər.**

– Siz birgə hərbi təlimlər keçirirsiniz...

– Bəli, bəli, keçiririk.

**– Əgər, bu münaqişəyə üçüncü ölkə cəlb olunsa, Siz Türkiyədən kömək gözləyərsiniz?**

– Biz hər hansı üçüncü ölkənin cəlb olunmasını istəmirik. Hansısa ölkənin cəlb oluna biləcəyini biz görmürük. Çünki bizi əhatə edən ölkələr bizim tərəfdaşlarımız və dostlarımızdır. Biz bilirik ki, ermənilər onların bəzilərini bu döyüşə cəlb etmək istəyirlər, lakin, əminəm, bu, baş verməyəcək. Bu, bizimlə Ermənistan arasında olan döyüşdür və hər kəs ondan uzaqda durmalıdır. Türk əsgərlər burada ola bilər, bəli. Ötən il biz 10 birgə hərbi təlim keçirmişik. Lakin bizim başqa ölkələrlə də çoxlu təlimlərimiz olur. Biz NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramının bir hissəsiyik. Burada qəribə heç nə yoxdur. Siz onları Bakıda görmüsünüz, onları döyüşdə görməmisiniz.

**– Türkiyəyə məxsus F-16-lar burada - Azərbaycanda olduğuna görə özünüzü daha təhlükəsiz hiss edirsiniz?**

– Türkiyənin F-16-ları bura təlimlə bağlı gəlib və ermənilər bizə qarşı hücuma keçdiklərinə görə burada qalıblar. Onlar həmrəylik əlaməti olaraq buradadır. Onlar heç bir döyüşdə iştirak etmir. Onların burada iştirakı planlaşdırılmır.

**– Atəşkəs 3 dəfə pozulub. Onlardan biri Fransa, biri Rusiya, biri isə ABŞ-la danışıqlar nəticəsində elan edilmişdi. Bu müharibəni hansı beynəlxalq güc dayandıra bilər?**

– Düşünürəm ki, bunu Ermənistan dayandırmalıdır. Beynəlxalq güc – sizin qeyd etdiyiniz bu üç ölkə Minsk qrupunun həmsədrləridir. Onlar dünyanın aparıcı ölkələri, BMT Təhlükəsizlik Şurasının üzvləridir, daimi üzvləri. Bu ölkələr Ermənistan qoşunlarının çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Lakin bu ölkələr bu qətnamələrin icrası üçün heç nə etməyiblər. Bu qətnamələr kağız üzərində qalıb. Bu, onu göstərir ki, bu vasitəçilik səmərəli olmayıb. Lakin, eyni zamanda, biz daha güclü ola biləcək bəzi başqa ölkələr barədə düşünməyə bilmərik. Ona görə də, müharibəni dayandırmağın yeganə yolu ondan ibarətdir ki, Ermənistan dayansın, öz məğlubiyyətini qəbul etsin, bizim qələbəmizi qəbul etsin və sonra ərazilərin bir hissəsini boşaltmaq barədə öhdəlik götürsün. Biz istənilən halda onları azad edəcəyik. Biz əks-hücuma başlayanda onlar inanmırdılar. Biz dedik – biz azad edəcəyik, bunu indi dayandırın. Onlar hətta biz Füzulini geri qaytarandan sonra da dayana bilərdilər. Dayanmadılar.

– Sizdə elə bir hiss varmı ki, onlar bu münaqişədə həqiqətən də maraqlı deyillər?

**– Siz kimi nəzərdə tutursunuz?**

– Məsələn, həmin üç ölkə.

– Xeyr, məndə belə bir hiss yoxdur. Çünki əgər onlar maraqlı olmasaydılar, vasitəçi olmazdılar. Onların ATƏT-dən mandatı var.

**– Lakin vasitəçilik uğurlu olmadı?**

– Bəli, uğurlu olmadı, çünki onlar Ermənistana sanksiya tətbiq etmədilər. Mən bu məsələni dəfələrlə qaldırmışam. Ermənistana qarşı sanksiya tətbiq olunmalı idi, necə ki, Səddam Hüseyn Küveyti işğal edəndə İraqa qarşı sanksiyalar tətbiq edilmişdi, dərhal. İraqa qarşı ciddi sanksiyalar var idi. Əgər eyni şey Ermənistana edilsəydi, onda onlar qüvvələri geri çəkərdilər.

**– Deməli, onlar göz yumdular?**

– Bəli, onlar göz yumdular. Mən deyərdim ki, göz yummadılar, onlar hər zaman deyirdilər ki, hərbi həll yoxdur. Onlar bu vəziyyətin bu və ya digər dərəcədə eyni qaydada davam etməsini istəyirdilər. Düşünürəm ki, münaqişənin dondurulmuş kimi görünməsi onları qane edirdi. Onlar düşünürdülər ki, bu, həmişəlik dondurula bilər və onlar yalnız bəzi etimad yaratma tədbirləri, bəzi monitorinqlər barədə düşünməyə çalışırdılar ki, heç bir toqquşma olmasın. Amma onlar ATƏT-in qərarına uyğun olaraq öz mandatlarını icra etmədilər. Onlar Ermənistanı məcbur etməli idilər. Düşünürəm, bu ölkələrin hər biri Ermənistana birtərəfli qaydada elə bir mesaj verə bilər ki, o, ona qulaq asmalı olar. Lakin onlar etmədilər.

**– Siz onlara qulaq asırsınız?**

– Mən hər bir tərəfdaşa qulaq asıram. Lakin bu, mənim qulaq asdıqdan sonra nə etməyimdən asılıdır. Lakin mən qulaq asıram.

**– İki gün əvvəl radioda Sizin Ermənistanın bu müharibəni aparmaq üçün pulu haradan aldığını soruşduğunuzu eşitdim. Cavab nədir?**

– Heç bir cavab yoxdur. Mən bir aydır bu sualı verirəm. Biz ilkin hesablama aparmışıq.

**– Mənə elə gəlir ki, bu sualı davamlı olaraq verən şəxsdə müəyyən mənada bir cavab olmalıdır.**

– Cavabım olsaydı, soruşmazdım. Hələ də soruşuramsa, o deməkdir ki, cavab almamışam. Biz məhv etdiklərimiz barədə minimum ilkin hesablama aparmışıq, yeri gəlmişkən, mən bizim məhv etdiklərimizin hamısını açıqlamamışam. Bu, olacaq. Bizim məhv etdiyimiz və qənimət kimi götürdüyümüz sursatın dəyəri 2,7 milyard dollardır. Bu pul haradan gəlir? Ermənistan kasıb ölkədir. Onun büdcəsi 2 milyard dollardan azdır. Onun xarici borcu 8 milyard dollardır.

**– Onları Rusiya dəstəkləyir.**

– Bu, sizin fikrinizdir?

**– Bu, rəsmidir. Sirr deyil. Başqa kimsə var?**

– Bəlkə də, mən bilmirəm. Beləliklə, mən soruşuram, amma heç bir cavab verilmir. Ona görə də, soruşmağa davam edəcəyəm.

**– Zati-aliləri, cənab Prezident, müsahibəyə görə çox sağ olun.**

– Təşəkkür edirəm.

# Cari ildə Bakıda qida məhsullarının istehsalı artıb



Bu ilin yanvar-sentyabr aylarında qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində 1 milyard 332,6 milyon manat dəyərində məhsul istehsal edilib.

AZƏRTAC Bakı Şəhər Statistika İdarəsinin yaydığı məlumata istinadla xəbər verir ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə qida məhsullarının istehsalında 5,5 faiz artım, içki istehsalında 5 faiz, tütün məmulatlarının istehsalında isə 61,2 faiz azalma müşahidə olunub. Keçən ilin yanvar-sentyabr aylarına nisbətən bu sahələrin əsas məhsullarından olan kolbasa məmulatlarının istehsalı 73,9 faiz, şirin peçenye istehsalı 52,9 faiz və insanın qidalanması üçün yararlı olan duz istehsalı 7,3 faiz artıb.

# Paytaxtın kimya sənayesində məhsul buraxılışı artıb

Doqquz ayda Bakının kimya sənayesində məhsul buraxılışı artıb.

Yanvar-sentyabr aylarında paytaxtın kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində 277,6 milyon manatlıq məhsul istehsal edilib, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə məhsul buraxılışı kimya sənayesində 12,6 faiz, əczaçılıq məhsullarının istehsalında 5,3 dəfə, rezin və plastik kütlə məmulatlarının istehsalında isə 63,2 faiz artıb.

Ötən ilin yanvar-sentyabr ayları ilə müqayisədə əsas kimya məhsullarından azot istehsalı 63,6 faiz, oksigen istehsalı 29,5 faiz, lak boya məmulatlarının istehsalı 42,1 faiz azalıb.

Rezin və plastik kütlə məmulatlarından bərk polietilen borular, borucuqlar, şlanqlar, qolların istehsalı əvvəlki ilin eyni ayları ilə müqayisədə 8 faiz, plastik borular, borucuqlar, şlanqlar üçün fitinqlərin istehsalı isə 2,4 dəfə artıb.



# Bakıda tikinti materiallarının istehsalı 5 faiz artıb



Yanvar-sentyabr aylarında paytaxtda tikinti materiallarının istehsalı sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən istehsal edilmiş məhsulun ümumi dəyəri ötən ilin müvafiq dövrünə nisbətən sabit qiymətlərlə 5 faiz artaraq 371,9 milyon manat təşkil edib.

AZƏRTAC Bakı Şəhər Statistika İdarəsinin yaydığı məlumata istinadla xəbər verir ki, əvvəlki ilin eyni dövrünə nisbətən sementin istehsalı 3,2 faiz, hörmə üçün hazır beton qarışığının istehsalı 23 faiz, asfaltın istehsalı 34,6 faiz, tikinti gipsinin istehsalı isə 6,4 dəfə artıb.

# "SOCAR Turkey LNG" şirkətinin satınalma proseduru yekunlaşıb




"SOCAR Turkey LNG" şirkətinin səhmlərinin 100 faizinin satınalma proseduru tamamlanıb.

AZƏRTAC "Global Yatırım Holding"ə istinadla xəbər verir ki, "Naturelgaz" şirkəti "SOCAR Turkey Enerji A.Ş." (STEAŞ) şirkətinin maye qaz (LNG) və sıxılmış təbii qaz (CNG) paylama əməliyyatlarını təhvil alma prosedurunu tamamlayıb. "Naturelgaz" təhvil-təslim qiyməti olaraq 32 milyon 411 min türk lirəsi ödəyib.

Xatırladaq ki, fevralın 6-da "Naturelgaz" "SOCAR Turkey LNG" şirkətinin səhmlərinin 100 faizini almaq üçün müqavilə imzalayıb.

"Naturelgaz" 2019-cu ildə 167 milyon kubmetr CNG tədarük edib. "SOCAR Turkey LNG"-nin isə il ərzində CNG və LNG tədarükü 35,4 milyon kubmetr olub.

Qeyd edək ki, SOCAR 2008-ci ilin mayından etibarən Türkiyədəki fəaliyyətini STEAŞ adı ilə davam etdirir.

# Paytaxtın elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsal artıb

Yanvar-sentyabr aylarında paytaxtın elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi artıb.

9 ayda elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 457,3 milyon manat dəyərində məhsul istehsal edilib və xidmətlər göstərilib, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə isə 36,7 faiz artıb. Sənaye məhsulunun 2,1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsal edilib.

Üç rübdə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların və göstərilmiş xidmətlərin həcmi isə əvvəlki illə müqayisədə 9,7 faiz azalaraq 172,9 milyon manat təşkil edib. Sənaye məhsulunun 0,8 faizi bu sektorda istehsal olunub



# Əsas kapitala 6,6 milyard manat yönəldilib



Yanvar-sentyabr aylarında paytaxtda əsas kapitala 6 milyard 687,3 milyon manat məbləğində, yaxud ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,3 faiz çox vəsait yönəldilib.

Bakı Şəhər Statistika İdarəsinin yaydığı məlumata istinadla xəbər verir ki, əsas kapitala yönəldilmiş vəsaitin 3 milyard 277,3 milyon manatı və ya 49 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

# Muzdla işləyənlərin orta aylıq əməkhaqqı artıb

Yanvar-avqust aylarında Bakıda muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 2019-cu ilin müvafiq dövrünə nisbətən 14,1 faiz artaraq 938,4 manat təşkil edib.

Bu barədə Bakı Şəhər Statistika İdarəsinin yaydığı məlumatda bildirilir.



# AZƏRBAYCANIN HAQQ İŞİ MÜDAFİƏ OLUNUR, DÜŞMƏN MƏKRLİ NİYYƏTİNİN GİROVUNA ÇEVRİLİR

Əfsuslar olsun ki, beynəlxalq vasitəçilər – Rusiya, ABŞ, Fransa kimi super güclər 27 ildir ki, işğalçı Ermənistana lazımi təzyiq göstərə bilməmiş, bugünkü hadisələrin gedişi bir daha göstərir ki, heç bunu etmək istəməmişlər də. Əgər belə olmasaydı, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi kağız üzərində qalmazdı, münaqişə qanlı savaş fazasına keçməzdi. Hətta bu günlərdə, ağır döyüşlərin getdiyi bir zamanda dünyanın ali qurumları öz riyakar sifətlərini bir daha göstərməkdə davam etmişlər. Müharibənin gedişində Azərbaycan ordusunun üstünlüyünü və qələbə əzmini görən BMT Təhlükəsizlik Şurası təcili iclas keçirmiş, 1993-cü ildə qəbul olunmuş həmin qətnamələrin üzərindən faktiki xətt çəkməyə cəhd göstərilmişdir. Bu ölçüdə ikili yanaşma, riyakar niyyət sərgiləmək olurmu? 1993-cü ildə qəbul edilmiş qətnamələr tələb edirdi ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan tam, dərhal və qeyd-şərtsiz çıxarılsın. Sözügedən iclasda təqdim edilən layihədə bu müddəalar özünə yer almışdı.

Bu isə Azərbaycana qarşı açıq-aydın təxribat olmaqla beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır. Belə olan halda işğalçı Ermənistandan hansı müsbət addım gözləmək olar? Nə yaxşı ki, dünyada hüququn aliliyini, haqqı, ədaləti uca tutan dövlətlər var. Hazırda Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatına üzv ölkələr tərəfindən Azərbaycanın haqq işinə göstərilən ciddi və prinsipial dəstək bu məkrli və riyakar niyyəti iflasa uğratdı. Bu hadisəni Azərbaycan Respublikasının beynəlxalq aləmdə növbəti qələbəsi kimi qiymətləndirmək olar.

BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvləri olan və Qoşulmama Hərəkatına daxil olan ölkələr bunlardır: İndoneziya, Niger, Tunis, Vyetnam, Cənubi Afrika, Sent-Vinsent, Qrenadin və Dominikan Respublikası. Həmin ölkələr iki dəfə sükut prosedurunu pozaraq, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə istinadın bəyanata daxil edilməsinə israr etmişlər. Qoşulmama Hərəkatına üzv olan dövlətlərin israrlı və prinsipial mövqeyindən sonra sözügedən bəyanat layihəsi rəsmən geri götürülmüşdür. Bu məqamda qeyd etmək yerinə düşərdi ki,




Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın xarici siyasət kursu çoxvektorlu və praqmatik xarakter daşıyır. Milli maraqlara söykənən bu kurs nəticəsində ölkəmiz dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən etibarlı tərəfdaş kimi qəbul olunmaqdadır. Bununla yanaşı, Azərbaycanın üzv olduğu və rəhbərlik etdiyi təşkilatların bir sıra mühüm tədbirləri ölkəmizin paytaxtı Bakı şəhərində keçirilir ki, bu da respublikamızın beynəlxalq nüfuzundan xəbər verir. Bu mənada, ölkəmizin sədri olduğu Qoşulmama Hərəkatına üzv dövlətlərlə münasibətləri olduqca yüksək səviyyədədir.

**Bir neçə kəlmə Qoşulmama Hərəkatının tarixi barədə.**

1955-ci ildə İndoneziyanın Bandunq şəhərində keçirilən Asiya-Afrika Konfransı Qoşulmama Hərəkatının təsis edilməsi istiqamətində əhəmiyyətli addım hesab olunur. Bandunq konfransından 6 il sonra, 1-6 sentyabr 1961-ci il tarixində keçirilmiş, Yuqoslaviyanın Belqrad şəhərində Asiya və Afrikanın 25 dövlət və hökumət başçılarının iştirakı ilə təşkil olunmuş Zirvə Görüşündə Qoşulmama Hərəkatının institusional əsası qoyulmuşdur. Bu qurum "soyuq müharibə" dövründə yaradılmasına baxmayaraq, fəaliyyətinin bütün dövrlərində həmişə ədaləti, beynəlxalq hüququ, dövlətlərin suverenliyi və ərazi bütövlüyünü, multikulturalizmi müdafiə etmişdir. Qoşulmama Hərəkatında hazırda 120 dövlət üzv kimi fəaliyyət göstərir. Bundan başqa, Qoşulmama Hərəkatının 17 müşahidəçi dövləti və 10 müşahidəçi beynəlxalq təşkilatı var. Qoşulmama Hərəkatının daimi qərargahı yoxdur. Büro vasitəsilə Qoşulmama Hərəkatı öz üzvlərinin BMT orqanlarında vahid mövqedən çıxış etməsini əlaqələndirir. Büroya rəhbərliyi təşkilatın sədri olan dövlətin BMT yanında daimi nümayəndəsi həyata keçirir. Qoşulmama Hərəkatının əsas məqsəd və prinsipləri BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə, eləcə də əsas insan hüquq və azadlıqlarına hörmət etməklə tövsiyə olunur. Bundan başqa, dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət, böyük-kiçikliyindən asılı olmayaraq, bütün irqlərin və xalqların bərabərliyini tanımaq, digər dövlətlərin daxili işlərinə qarışmamaq, BMT Nizamnaməsi çərçivəsində hər bir dövlətin özünü fərdi və ya kollektiv şəkildə müdafiə etməsi hüququna hörmət etmək kimi ümdə məsələlər də qurumun əsas məqsədləri sırasındadır.

Qoşulmama Hərakatı həmçinin BMT-nin Nizamnaməsinə uyğun olaraq bütün beynəlxalq mübahisələri sülh yolu ilə tənzimləmək, qarşılıqlı maraq və əməkdaşlığı təşviq etmək, ədalətə və beynəlxalq öhdəliklərə hörmət kimi prinsipləri özünün əsas meyarları hesab edir. Azərbaycan 2011-ci ilin may ayında Qoşulmama Hərəkatına üzv seçilib. Üzv olduqdan sonra ölkəmiz təşkilatın işlərində daim fəal iştirak edib. Məhz bu fəallığın nəticəsidir ki, Azərbaycan Respublikası 2019-cu ilin 25-26 oktyabrında Bakı şəhərində Hərəkatın 18-ci dövlət və hökumət başçılarının Zirvə Görüşünə ev sahibliyi edib. BMT-nin 120 üzv dövlətinin yüksək səviyyəli nümayəndələrinin, o cümlədən 42 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə Hərəkata sədrlik 2019-2020-ci illər ərzində Azərbaycan Respublikasına keçib. Qoşulmama Hərəkatının sədri cənab İlham Əliyev Azərbaycanın sədrliyi zamanı öz prioritetlərini və fəaliyyətlərini bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətin daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqların qorunması və əməkdaşlığının təşviqi kimi prinsipləri ehtiva edən tarixi Bandunq prinsipləri üzərində quracağını bəyan edib və bu xüsusda, qurumun ruhuna və missiyasına uyğun fəaliyyət göstərib. Həmin fəaliyyətin nəticəsidir ki, bu gün bir çox ölkələr Azərbaycana münasibətdə yüksək fəallıq nümayiş etdirirlər. Tolerantlıq və multikultural dəyərlər yüksək səviyyədə olduğuna görə Azərbaycan bütün dünyaya nümunə göstərir. Belə olan halda dünya birliyi görür ki, azərbaycanlılarla birgə yaşayışın mümkünsüzlüyü barədə ermənilərin iddiaları əsassızdır, böhtan və iftiradır. Minilliklər boyu dövlətçilik tarixindən mif düzəldən ermənilər indiyədək tayfa psixologiyasından o yana gedə bilməyiblər. Xəyanət, riyakarlıq, satqınlıq, yaltaqlıq və qorxaqlıq. Budur, ermənilərin minillik genefondu!

Tarix bir xalqın, millətin, toplumun mücadilə və mübarizə yoluna işıq salan salnamədir. Tarix nağıl deyil. Onu yalandan yazmaq, pozmaq olmaz! Sərsəm uydurmalar, xəyallar üzərində yazılan tarix günlərin birində zamanın süzgəcindən keçə bilməyib, həm özünün saxtalığını üzə çıxarır, həm də onu yazan milləti bədbəxtliyə və faciəyə sürükləyir. Bu gün erməni xalqı həmin acı günlərini yaşayır. Cəmi iki yüz il öncə, xristian olduqlarına görə Azərbaycana yerləşdirilən bu toplum bir müddət keçdikdən sonra hər seyi "erməniləşdirmək" sevdasına düşdü. Hətta bu yolla əzəli yurd yerlərimiz olan İrəvanda, Zəngəzurda özlərinə müstəqil dövlət qurmağa da nail oldular. Quşun da yuvası var. İnsan da vətəni olanda əsl insana, vətəndaşa çevrilir. Ermənilərin isə tarix boyu nə vətəni, nə də ki yurd yeri olmayıb. Odur ki, dünyanın dörd bir yanına səpələniblər. Bir əsrdən artıqdır ki, "vətən torpağı" axtarışına çıxmışlar, "dənizdən dənizə dövlət" xülyası ilə yaşamışlar. Bu yolda hər cildə girmişlər, terrora, soyqırıma, insanlıq əleyhinə hər cür cinayətə əl atmışlar. Türklərə, azərbaycanlılara isə ölçüyəgəlməz kin-küdurət bəsləmişlər.

XXI əsrdə yüksək hərbi-texniki potensiala, iqtisadi gücə, insan resurslarına, geosiyasi çəkiyə malik Türkiyə kimi nəhəng bir ölkəyə qarşı iddialardan əl çəkmirlər. Çünki indiyəcən bu marionet dövlətin burnu əzilməmişdi, yerində otuzdurulmamışdı. Bunu Azərbaycan ordusu etdi. Cənab prezidentin təbirincə desək, onları elə qovacağıq ki, bir də üzlərini çevirib biz tərəfə baxa bilməsinlər. Abxaziyada separatizmi alovlandıran da ermənilər olmuşdur. İndi-indi həqiqətlər üzə çıxır. Məqsəd Abxaziyanı "ermənilərə məxsus" Krasnodar diyarı ilə birləşdirmək idi. Bu gün faktiki olaraq Krasnodar, Stavropol diyarları və Rostov vilayəti ermənilərin tam kurasiyasındadır.

Nədənsə ruslar bu reallığı görmək istəmirlər. Bir gün erməni xəyanəti onlara da tuş gələcək. Mənəviyyatsızlığın dərəcəsinə baxın ki, Azərbaycanla müharibə apardıqları və uduzduqları bir vaxtda onlar Gürcüstanın Samtsxe-Cavaxeti bölgəsinə torpaq iddialarını gündəmə gətirirlər. Cəzasızlıq o həddə gəlib çatıb ki, onlar beynəlxalq təşkilatların çağırışlarına da məhəl qoymurlar. Ancaq dünya 15-20 il bundan əvvəlki dünya deyil, qüvvələr nisbəti dəyişib, yeni reallıqlar və çağırışlar meydana çıxıb. Ermənilərin məkrli niyyətləri fiaskoya uğrayır. Dünyanın erməni xisləti öz çirkin və iyrənc çalarları ilə üzə çıxır. Ermənilərin faciəli günləri başlayır!

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**

# Azərbaycandan 10,6 milyard dollarlıq ixrac reallaşdırılıb




Cari ilin yanvar-sentyabr ayları ərzində Azərbaycandan 10,6 milyard dollar, o cümlədən qeyri-neft sektoru üzrə 1,3 milyard dollar dəyərində ixrac reallaşdırılıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac İcmalı"nın oktyabr sayına istinadla xəbər verilir ki, 9 ayda Rusiyaya 485,9 milyon, Türkiyəyə 252 milyon, İsveçrəyə 166,1 milyon, Gürcüstana 99,6 milyon və Çinə 33,4 milyon dollar dəyərində qeyri-neft sektoruna aid məhsul ixrac olunub.

# İşğaldan azad edilən torpaqlarda kənd təsərrüfatının inkişafına dair fəaliyyət planı hazırlanır

Azərbaycanın işğaldan azad edilən torpaqlarında kənd təsərrüfatının inkişaf etdirilməsi nəzərdə tutulur. Bunu Azərbaycanın kənd təsərrüfatı naziri İnam Kərimov Aqrar Sığorta Fondunda Azərbaycanda dövlət dəstəyi ilə ilk sığorta müqaviləsinin imzalanmasına həsr olunan tədbirdə çıxış edərkən deyib.

Onun sözlərinə görə, artıq bununla bağlı hesablamalara və fəaliyyət planının hazırlanmasına başlanılıb.



Nazir bildirib ki, Ermənistanın hərbi təcavüzü aqrar sahəyə təsirsiz ötüşməyib: "Bu hücum nəticəsində təmas xəttində yerləşən kəndlərdə xeyli iri və xırdabuynuzlu heyvan tələf edilib, yem ehtiyatları yandırılıb, on minlərlə hektar əkin sahələrində yığım məhdudlaşıb, kənd təsərrüfatı texnikaları məhv edilib. Ümumilikdə, davam edən hərbi təcavüz yüz mindən çox fermerin həyatına təsir edib".

# Dövlət dəstəyi ilə aqrar sığorta mexanizminin tətbiqinə başlanılıb

Azərbaycanda dövlət dəstəyi ilə yaradılan aqrar sığorta mexanizmi rəsmi olaraq fəaliyyətə başlayıb.

Bu barədə Kənd Təsərrüfatı Nazirliyindən bildirilib.

Qeyd olunub ki, artıq Aqrar Sığorta Fondunda Azərbaycanda dövlət dəstəyi ilə ilk sığorta müqaviləsi imzalanıb. Müqavilə müqaviləsi Ermənistanın davamlı hərbi təcavüzünə məruz qalan Tərtər rayonunun Bəyimsarov kəndində fermer Habil İbrahimli ilə imzalanıb. Həmin müqaviləyə əsasən fermerə məxsus 50 baş iribuynuzlu heyvan aktual risklərdən sığortalanıb. Sığorta haqqının 50%-i dövlət tərəfindən ödəniləcək, qalan




məbləği isə fermer hissələrlə ödəyəcək.

Qeyd edək ki, aqrar sığorta mexanizmi "Aqrar Sığorta haqqında" Qanuna əsasən fəaliyyət göstərir. Kənd təsərrüfatı riskləri Aqrar Sığorta Fondu tərəfindən sığortalanacaq.

Azərbaycanda aqrar sığorta sistemi qardaş Türkiyənin TARSİM sisteminin təcrübəsi və dəstəyi ilə formalaşdırılıb. Aqrar sığorta vasitəsilə fermerlər kənd təsərrüfatı heyvanlarını, əkin sahələrini və bitkiçilik məhsullarını, eləcə də akvakulturanı güzəştli şərtlərlə ən aktual risklərdən sığortalaya biləcəklər.

Aqrar sığorta mexanizminin tətbiqi fermerlərə və sahibkarlara dəstək olmaqla yanaşı, kənd təsərrüfatının daha təhlükəsiz biznes sektoruna çevrilməsinə, bu sahəyə yatırımların artmasına səbəb olacaq və ümumilikdə kənd təsərrüfatının inkişafına mühüm töhfə verəcək.

Aqrar sığorta fermerlərin risklərini sığortalamaqla aqrar sahənin maliyyəyə çıxışını asanlaşdıracaq, kənd təsərrüfatının daha dayanıqlı inkişafına şərait yaradacaq.

# Silahlı Qüvvələrə Yardım Fondunda 221 mln. manatdan çox vəsait yığılıb

Azərabaycanda sentyabrın 27-dən başlayan müharibədən sonra Silahlı Qüvvələrə Yardım Fonduna yığılan vəsaitin həcmi kəskin artıb.

2 noyabr 2020-ci il tarixindən açıqlanan məlumata görə, 198.01 mln. manat, 11 mln. ABŞ dolları (18.69 mln. AZN), 165.6 min avro (0.33 mln. AZN), 5.06 mln. rus rublu (1.09 mln. AZN), 1.29 mln. Böyük Britaniya funt sterlinqi (2.85 mln. AZN) və 496 min tl (0.1 mln. AZN) vəsait yığılıb.




Bu isə Azərbaycan Mərkəzi Bankının son günlərdə açıqladığı rəsmi məzənnəsi ilə manatla ifadədə təqribən 221 mln. Azərbaycan manatı olması deməkdir.

# Ильхам Алиев: "Письмо Пашиняна Путину - это признание поражения"

"Армения фактически признала свое поражение. Как вы знаете, недавно премьер-министр Армении Никол Пашинян адресовал письмо президенту России господину Путину. Это письмо на самом деле является признанием поражения. Потому, что была запрошена военная поддержка у России, хотя для этого нет никаких оснований". Об этом сказал президент Азербайджана Ильхам Алиев на встрече с делегацией во главе с министром иностранных дел Турции Мевлютом Чавушоглу.

«Азербайджан проводит военные операции на своей территории, которая признана со стороны международного сообщества. На территории Армении не проводится никаких операций, и у нас нет таких планов. Если бы они у нас были, мы бы сделали это в июле этого года. Как вы знаете, тогда Армения напала на нас на государственной границе, мы вытеснили Армению с наших земель, не переходя государственную границу. Поэтому, с одной стороны, он признает поражение, о чем свидетельствует отправленное письмо, с другой стороны - не хочет сдаваться. Сегодня продолжение войны и потери с обеих сторон происходят из-за грязных действий Никола Пашиняна и возложенной на него большой ответственности. Вся ответственность на стороне Армении. И если признают поражение и выйдут с наших земель, то самый приемлемый вариант - это решение вопроса за столом переговоров. Одним словом, уже происходит решение этого вопроса.

Я уже говорил, что Азербайджан исполняет резолюции Совбеза ООН, и большая часть базовых принципов уже выполнена. Надеюсь, что будет выполнена и оставшаяся часть базовых принципов и будет восстановлена территориальная целостность нашей страны», - сказал президент.

# Миллиардер Фархад Ахмедов: Россия может вернуться на Южный Кавказ, лишь поддержав Азербайджан

## НА СТРАНИЦАХ «ИЗВЕСТИЙ»

***Экс-сенатор, российский миллиардер азербайджанского происхождения, меценат Фархад Ахмедов выступил в газете «Известия» с аналитической статьей, призвав политическое руководство России восстановить роль и авторитет своего государства на Южном Кавказе путем мирного урегулирования карабахского вопроса на основе принципа территориальной целостности Азербайджана. Представляем вашему вниманию статью Ф.Ахмедова.***

***Простая истина, что Нагорный Карабах – это Азербайджан, в эти дни становится очевидной. Регион возвращается под контроль Азербайджана. Хваленая армянская оборона разваливается на глазах, противник отступает, бросая вооружение, технику и боеприпасы. Азербайджанские войска уже подняли флаг над древним Худаферинским мостом и вышли на дальние подступы к Шуше и Ханкенди, установив контроль над значительной частью оккупированных территорий.***

Видеозаписи, распространяемые Министерством обороны Азербайджана, демонстрируют точное поражение живой силы и техники противника беспилотными средствами. Еревану нечем ответить на применение высокотехнологичных средств ведения войны и он прибегает к неизбирательным ночным ударам по мирным населенным пунктам, расположенным за десятки километров от зоны боевых действий. Ракетные удары по Гяндже – прямое нарушение международного гуманитарного права, или, в переводе с казенного языка – военное преступление. Недаром весь мир единодушно осуждает зверства, вызванные судорожной попыткой Н. Пашиняна хоть что-то противопоставить успешному наступлению азербайджанской армии.

В эти дни, когда возвращение территорий Нагорного Карабаха в состав Азербайджана идет полным ходом, стоит задуматься о роли России в регионе Южного Кавказа – с учетом того, что быстро меняющаяся военно-политическая ситуация возымеет многочисленные последствия. Традиционно Москва выступает лидером на постсоветском пространстве. Тем не менее в карабахском конфликте ее политика давно утратила необходимые динамику, энергию и способность работать на опережение.

«Карабахский кейс» пущен на самотек, передоверен зарубежным посредникам и внутренним диаспорам. В результате, сегодня мы можем слышать алармистские заявления о турецком «вытеснении» России с Южного Кавказа, о том, что Анкара примеряет на себя ведущую роль в конфликте вокруг Нагорного Карабаха и регионе в целом. Такая тенденция - результат отстраненности тех ответственных лиц в российском внешнеполитическом истеблишменте и экспертном сообществе, которые десятилетиями уклонялись от активной роли в урегулировании в расчете, что конфликт будет заморожен вечно. Двадцать шесть лет прошло после подписания договора о перемирии в Нагорном Карабахе. Более четверти века Минская группа ОБСЕ искала пути мирного решения конфликта, не продвинувшись ни на миллиметр. И все это время продолжалась оккупация азербайджанских земель – как собственно Нагорного Карабаха, так и семи окружающих районов. От Азербайджана попытались отторгнуть 12 тысяч квадратных километров его лучших земель. Почти три десятка лет отсюда выкачивались золото, медь, другие стратегические полезные ископаемые. По некоторым оценкам, ежегодно от разграбления оккупированных территорий в карманах лидеров сепаратистской «НКР» оседало в среднем $283 млн. Бесконечно мириться с таким положением не стал бы ни один лидер. ***Мало кто знает, как много усилий для попыток бескровного разрешения конфликта затратил Ильхам Алиев, а до того - его отец. Стоит заметить, что Ильхам Алиев, человек с блестящим образованием, выпускник МГИМО - очень выдержанный и осторожный политик. Большое счастье для Азербайджана, что в такой сложный исторический период его возглавляет подобный лидер, а не какой-либо необразованный популист, который привел бы страну к тому состоянию, в котором она пребывала в начале 90-х гг.***

**Бесконечно мириться с таким положением не стал бы ни один лидер**

Азербайджан обвиняют в развязывании военных действий. Но они и не заканчивались, начиная с 1988 г. Отличие лишь в том, что на данном этапе, происходит реализация коллективной воли народа и по освобождению своих земель, и по окончательному пресечению любых армянских провокаций в будущем раз и навсегда. Именно эти провокации послужили триггером нынешнего обострения. Н. Пашинян своими недопустимыми действиями и высказываниями накалил градус противостояния и сорвал последние надежды на конструктивный диалог. Вот лишь пара примеров, насколько разнообразен арсенал провокаций. По «логике» Пашиняна, которой он пытается обосновать независимость «НКР» перед интеллектуалами, апеллируя к «историческим правам», Китай и Россия должны входить в состав Монголии, а Евросоюз – в состав города Рим. А для более широкой аудитории – телевизионные кадры, где супруга Пашиняна в Карабахе позирует с российской винтовкой, нацеленной в сторону Азербайджана. Создается впечатление, что руководство Армении намеренно пыталось унизить, оскорбить, задеть за живое, насыпать соль на старые раны. И апофеоз – пресловутый ультиматум из 7 пунктов Ильхаму Алиеву, который до последнего пытался искать мирные пути решения проблемы.

Терпению народа Азербайджана пришел конец. Начавшиеся военные действия вылились в подлинно отечественную войну для 10 миллионов граждан. А в такой войне имеет значение любая поддержка. Поэтому, когда Турция (кстати, член Минской группы ОБСЕ) протягивает руку помощи – почему Баку должен отказываться от нее?



**Пашинян и Акопян всячески провоцировали Азербайджан на ответный удар**

Победы на фронте Азербайджан добивается собственными усилиями. Сплетни про арабских наемников и турецких инструкторов – это попытка навести тень на плетень. Просто времена поменялись. В 1992-1994 годах Азербайджан находился в сложном положении по причине внутренней нестабильности. Сегодня он обладает высокотехнологичной армией, вооруженной и обученной в соответствии с требованиями 21 века. Ее солдаты и офицеры опираются на полную поддержку и доверие народа. Азербайджан поддерживают все соседи по региону: Турция, Иран, Грузия. Прочные отношения и с дальним зарубежьем, например, с Израилем. В отличие от Армении, которая обладает патологической склонностью интриговать с любым партнером.

Что касается России, ей необходимо срочно вернуть себе решающую роль в регионе. И этого необходимо добиться не декларативными мерами. Соглашение о гуманитарном прекращении огня, подписанное в Москве в ночь с 9 на 10 октября при российском посредничестве, было сорвано армянской стороной, что выразилось в усилении обстрелов гражданских целей Азербайджана. Новое соглашение о перемирии от 17 октября также не работает. Следовательно, требуются новые, неординарные, системные действия, которые позволят урегулировать конфликт, восстановить реальное влияние России в Закавказье. Не следует забывать, что в РФ проживает 5 - 6 миллионов азербайджанцев и армян, и в случае затягивания войны, вероятно обострение противостояния между двумя диаспорами внутри страны.

В 2009-2011 годах по инициативе России почти был достигнут прорывной результат. Тогда под председательством Президента Медведева руководители Азербайджана и Армении согласовали консенсус, основанный на максимально возможных взаимных уступках. К сожалению, подписание соглашения было сорвано. Как стало известно позднее, только потому, что в окончательный текст, без предупреждения, были по просьбе армянской стороны внесены неприемлемые для Азербайджана коррективы. И здесь не обошлось без вмешательства министра иностранных дел Сергея Лаврова, который открыто лоббировал интересы Нагорного Карабаха, пытаясь сделать его представителей участниками переговоров.

Роль Лаврова в карабахском урегулировании вообще была негативной и пристрастной, я бы назвал это своего рода должностным преступлением. Как он сам признал в 2005 году, на встрече с армянскими студентами в Ереване, «во мне течет армянская кровь и никакая другая. Эта кровь ни в чем мне не мешает». Позвольте мне усомниться в последнем тезисе. Склонность Лаврова приглашать к себе армянских журналистов и вести с ними долгие разговоры «за рюмочкой» общеизвестна. Поэтому не удивительно, что к его действиям нет доверия: оба последних соглашения о прекращении огня были сорваны, и к переговорам пришлось подключать министра обороны Сергея Шойгу. Ведомство, руководитель которого этнически небеспристрастен, не может считаться объективным посредником в сложном конфликте.

Срыв соглашения в Казани в 2011 г. стоил Азербайджану и Армении потери десятилетия, которое могло быть посвящено налаживанию нормальных соседских отношений. В экономических терминах, упущенная прибыль составила миллиарды долларов. Еще больше миллиардов были потрачены на гонку вооружений, причем часть оборонных расходов Армении традиционно легла бременем на плечи российского налогоплательщика. А ведь если бы тогда было достигнуто всеобъемлющее соглашение по мирному урегулированию, то Армения могла бы войти в региональные инфраструктурные проекты, в том числе в жизненно необходимой ей энергетике. Недаром Дейл Карнеги писал, что соседом лучше иметь богатого человека. Так и для Армении, бедной и землями, и природными ресурсами, сама судьба послала Азербайджан.

Однако вместо налаживания добрососедских отношений Ереван выбрал путь войны и аннексии. Добившись успеха в начале 90-х, армяне почивали на лаврах, думая, что так будет продолжаться вечно, поверив в миф о «Великой Армении», ими же самими и созданный. Но наступило время платить по счету. К сожалению, и Азербайджан, и Армения расплачиваются самой дорогой ценой - жизнями солдат и мирных жителей. И это – результат, в том числе заблуждений и пренебрежения со стороны российского МИД. Сегодня Пашинян продолжает упорно отвергать предложенную посредниками «Мадридской формулу 5+2». Пока неясно, когда его вразумят поражения на фронте. Лихорадочно цепляясь за власть и отказываясь признать банкротство своей политики, он тянет за собой на дно целую страну. Но к ясной и твердо артикулированной позиции России он не сможет не прислушаться. Поскольку целиком зависит от нее во всем, что бы он не говорил на публику. Только Москва способна собрать под своей эгидой лидеров обеих стран, найти для них понятные аргументы, суметь выработать новый вариант мирного соглашения, соответствующий нынешнему изменившемуся соотношению сил и новому статус-кво, равно как и механизм реализации этого соглашения, в основе которого будет заложен принцип признания территориальной целостности Азербайджана.

**Почему бы Медведеву не взять инициативу в свои руки?**

В этой связи важен вот какой момент. Заместитель Председателя Совета Безопасности РФ Дмитрий Анатольевич Медведев пользуется полным доверием Президента России, имеет большой внешнеполитический опыт, в том числе в сфере карабахского урегулирования. Считаю, ему вполне можно доверить посредническую миссию между Баку и Ереваном. Будучи выдержанным дипломатом и профессиональным юристом, он равноудален от противоборствующих сторон и может рассчитывать на их доверие. В случае потенциального решения со стороны Владимира Путина Медведев мог бы стать идеальным посредником, выстраивающим челночную дипломатию. Так, как это в свое время делали Генри Киссинджер, завершая войну во Вьетнаме, или Строуб Тэлботт, подводя итоги войны на Балканах.

В упомянутых мной конфликтах США оттеснили Москву на второй план. Нельзя допустить подобное на Южном Кавказе. Если Россия не скажет сейчас решительное слово, ее престижу и влиянию будет нанесен непоправимый ущерб.

Я уверен, что когда Азербайджан вернет утраченные территории, то начнется мирная созидательная работа по восстановлению Карабаха. Я лично готов сделать все возможное, чтобы помочь этой столько вытерпевшей земле. В том числе профинансировать восстановление церкви в Шуше, разрушенной случайным попаданием ракеты.

И обязательно построю в этой колыбели мировой музыки музыкальную школу, в которой, я верю, будут учиться вместе азербайджанские, армянские и дети других национальностей.

**20 октября 2020**




# Xalqımızı 9 noyabr - Azərbaycan Respublikasının Dövlət bayrağı günü münasibəti ilə ürəkdən təbrik edirik!






## Bakıda inflyasiya 2,5% olub



Bu ilin yanvar-sentyabr aylarında Bakıda istehlak qiymətləri ötən ilin eyni dövrü ilə müqayisədə 2,5% artıb.

Bu barədə Bakı Şəhər Statistika İdarəsi bildirib. Məlumata görə, ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri 4,7%, qeyri-ərzaq malları üzrə 0,6%, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə isə 1,1% artım olub.

## Azərbaycanda qızıl bahalaşıb

Azərbaycanda qızıl bahalaşıb, gümüş isə ucuzlaşıb.

Noyabrın 4-də qızılın qiyməti noyabrın 3-ü ilə müqayisədə 11,9765 manat (0,37 faiz) artaraq 1 unsiya üçün 3 228,283 manat təşkil edib.

Gümüş 0,4361 manat (1,07 faiz) ucuzlaşaraq 1 unsiya üçün 40,4609 manata bərabər olub. Platinin qiyməti 3,791 manat (0,26 faiz) artaraq 1 466,998 manat, palladiumun qiyməti 79,3645 manat (2,09 faiz) artaraq 3 878,584 manat təşkil edib.

Bir ay ərzində bir unsiya qızıl 12,971 manat (0,4 faiz) bahalaşıb, gümüş 0,3246 manat (0,8 faiz) bahalaşıb, platin 42,313 manat (2,8 faiz) ucuzlaşıb, palladium 57,528 manat (1,5 faiz) ucuzlaşıb.

Bir il ərzində isə bir unsiya qızıl 658,1465 manat (25,6 faiz) bahalaşıb, gümüş 9,6644 manat (31,4 faiz) bahalaşıb, platin 153,2295 manat (9,5 faiz) ucuzlaşıb, palladium 793,9425 manat (25,7 faiz) bahalaşıb.






## Mərkəzi Bankın valyuta ehtiyatları 3,3% artıb

2020-ci il oktyabrın 31-nə Azərbaycan Mərkəzi Bankının (AMB) valyuta ehtiyatları $6 milyard 467,8 milyon təşkil edir. "İnterfaks-Azərbaycan" agentliyinin verdiyi xəbərə görə, bu barədə AMB-nin məlumatında deyilir. 2019-cu ilin sonuna AMB-nin valyuta ehtiyatları $6 milyard 258 milyon təşkil edib. Beləliklə, 2020-ci ilin yanvar-oktyabr aylarında Mərkəzi Bankın valyuta ehtiyatları 3,3% artıb. Oktyabrda Mərkəzi Bankın valyuta ehtiyatları 0,4% və ya $23,6 milyon azalıb.

5-11 noyabr 2020-ci il

# Ermənistan iqtisadiyyatı məhvə doğru gedir



27 sentyabrdan Ermənistanın təxribatları ilə başlayan döyüşlər ölkə iqtisadiyyatında tənəzzülü daha da dərinləşdirib. Bunu Trend-ə Milli Məclisin deputatı Vüqar Bayramov deyib.

V.Bayramov bildirib ki, Ermənistan bütövlükdə savaşa tənəzzülə uğramış iqtisadiyyatla başladı:

“2020-ci ilin birinci yarısında Ermənistan iqtisadiyyatında 5,8 faiz azalma qeydə alındı və bu ilin ikinci yarısında da azalma tempi davam etdi. Eyni zamanda, savaş başladıqdan sonra Ermənistan iqtisadiyyatındakı problemlər dərinləşməyə başladı.

Əvvəla, savaşın ilk ayında Azərbaycan ordusunun məhv etdiyi Ermənistan hərbi texnikası və silah sursatının, eləcə də hərbi qənimət kimi götürdüyü texnikanın ümumi dəyəri 2,7 milyard dollardır. Bu məbləğ Ermənistanın illik büdcəsindən çoxdur. Son 1 həftə ərzində də Ermənistanın hərbi texnikasının və silah-sursatının məhv edilməsi və hərbi qənimət kimi götürülməsi davam edib. Bunu da nəzərə alsaq, bütövlükdə müharibə başlayandan Azərbaycan ordusu Ermənistana 3 milyard dollardan artıq ziyan vurub. Eyni zamanda, Ermənistan həm də regionun ən çox xarici borcu olan ölkəsidir. Ermənistanın xarici borcu 8 milyard dollardan artıqdır ki, bu da ölkənin ümumi daxili məhsulunun 70 faizindən çoxunu təşkil edir. 2 milyard dollara qədər rezervləri olan ölkə üçün 8 milyarddan çox xarici borcun olması ciddi neqativ iqtisadi nəticələrə gətirib çıxaracaq.

İki həftə öncə Ermənistan parlamenti 2020-ci ilin dövlət büdcəsinə dəyişikliyin edilməsi ilə bağlı sənəd qəbul etdi və Ermənistanın borclanma limitinin artırılması həyata keçirildi. Bu da ondan xəbər verir ki, növbəti dövrlərdə də Ermənistanın xarici borclanması davam edəcək.

Digər tərəfdən beynəlxalq qiymətləndirmə şirkətləri Ermənistanın kredit reytinqinin azaldılması ilə bağlı qərar qəbul edib ki, bu da müharibənin Ermənistan iqtisadiyyatına vurduğu ziyanla bağlıdır. Bu baxımdan Ermənistanda müharibədən sonra da iqtisadi tənəzzül davam edəcək və daha da dərinləşəcək”.

# “Ərazi bütövlüyünü bərpa etmək Azərbaycanın haqqıdır”



“İRNA”ya istinadən xəbər verilir ki, bunu İran Prezidenti Həsən Ruhani Nazirlər Kabinetinin iclasında deyib.

Ruhani əlavə edib ki, İran Xarici İşlər Nazirliyi münaqişəyə son qoyulması, sülh əldə edilməsi üçün çox yaxşı bir plan hazırlayıb və tərəflərə təqdim edib.

Xatırladaq ki, daha əvvəl İran Prezidentinin xüsusi nümayəndəsi, XİN rəhbərinin müavini Abbas Əraqçi Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan, Ermənistan, Türkiyə və Rusiyaya səfər edib. O, səfər zamanı İranın sülh planını təqdim edib.

# Tramp: “Nəticələr fenomenaldır, biz qələbə qazanırıq!”



ABŞ prezidentliyinə əsas namizədlərdən biri olan Donald Tramp seçkilərlə bağlı xalqa etdiyi müraciətdə “Nəticələr fenomenaldır, biz qələbə qazanırıq! Qeyd edim ki, Corciya, Miçiqan, Viskonsin, Pensilvaniya və Şimali Karolina ştatlarında üstünlük qazandıq”, - deyə bildirib.

Banker.az bu barədə “TASS” agentliyinə istinadən xəbər verir.

Tramp seçki nəticələri ilə bağlı məsələni həll etmək üçün Ali Məhkəməyə müraciət etməyə hazır olduğunu söyləyib.

# Birləşmiş Ştatların neft ehtiyatları azalır



Bu barədə əsasən özəl sektorun maliyyələşdirdiyi Amerika Neft İnstitutu (API) məlumat yayıb. Bildirilir ki, ötən hesabat həftəsində ABŞ-ın xam neft ehtiyatları əvvəlki həftə ilə müqayisədə 8 milyon barel azalıb. Bazar proqnozları da ehtiyatların azalacağı istiqamətində idi. Əvvəlki həftə neft ehtiyatları 4,58 milyon barel artmışdı.

Ölkədəki ehtiyatlarla bağlı rəsmi rəqəmlər ABŞ-ın Enerji İnformasiya Administrasiyası (EIA) tərəfindən açıqlanacaq.

# Mövlud Çavuşoğlu: Azərbaycanın ərazi bütövlüyü hər kəs tərəfindən qeyd-şərtsiz dəstəklənməlidir



“Azərbaycanın ərazi bütövlüyü hər kəs tərəfindən qeyd-şərtsiz dəstəklənməlidir. Terrorun bütün formalarını qınayır və hər kəsdən eyni münasibəti gözləyirik”.

Türkiyə Xarici İşlər naziri Mövlud Çavuşoğlu bu fikirləri Avropa Komissiyasının 130-cu toplantısındakı çıxışında ifadə edib.

Nazir özünün rəsmi “Twitter” səhifəsində bu barədə türk və ingilis dillərində paylaşım edib.

# “Azərbaycan ərazilərinin işğalı qəbuledilməzdir”




Perunun dövlət televiziya kanalı “TV Peru”nun tanınmış “Geo Mundo” verilişinin 31 oktyabr buraxılışı bütövlükdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə həsr olunub. Veriliş ərzində səfir Məmməd Talıbovun münaqişə haqqında müsahibəsi efirə gedib.

Müsahibədə səfir Ermənistanın 1988-ci ildən başlayaraq Azərbaycana qarşı ərazi iddiaları irəli sürdüyünü, 1991-94-cü illər ərzində isə Dağlıq Qarabağ və yeddi ətraf rayon olmaqla Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizini işğal etdiyini, həmin ərazilərdə etnik təmizləmə apararaq bir milyona yaxın azərbaycanlını oradan qovduğunu bildirib.

BMT Təhlükəsizlik Şurası tərəfindən münaqişə ilə bağlı qəbul olunmuş qətnamələrdə Azərbaycan işğal altındakı ərazilərinin dərhal və qeyd-şərtsiz boşaldılmasının, məcburi köçkünlərin evlərinə qayıtmasına şərait yaradılmasının tələb edildiyini söyləyən diplomat Ermənistanın işğal faktını qoruyub saxlamaq siyasətindən əl çəkməyərək, həmin sənədlərin tələblərini bu günədək yerinə yetirmədiyini, habelə problemin həlli istiqamətində ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarda davamlı şəkildə qeyri-konstruktiv mövqe sərgilədiyini, bu səbəbdən danışıqların 28 il ərzində heç bir nəticə vermədiyini bildirib.

Qeyd edilib ki, Ermənistanın şovinist hökumətinin son iki il ərzində həyata keçirdiyi daha təcavüzkar hərbi-siyasi doktrina, bu ölkənin baş nazirinin danışıqlar prosesinin tamamilə pozulmasına səbəb olan “Qarabağ Ermənistandır və nöqtə”, müdafiə nazirinin isə “yeni ərazilər üçün yeni müharibələr” açıqlamaları, iyulda dövlət sərhədinin Tovuz rayonu istiqamətində törədilmiş təxribat, həmçinin təxribat xarakterli digər bəyanat və addımların davamı olaraq işğalçı dövlət sentyabrın 27-dən ölkəmizə qarşı növbəti dəfə hərbi təcavüzə əl ataraq ordumuzun mövqeləri ilə yanaşı, mülki əhalini də hədəfə alıb.

Regionda sülhün formulunun BMT qətnamələrinin icrası və Ermənistanın işğalçı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılması olduğunu deyən diplomat bunun Minsk qrupu çərçivəsində müəyyən edilmiş baza prinsiplərində də əksini tapdığını bildirib. Səfir qeyd edib ki, Azərbaycan çoxmədəniyyətli ölkədir, hazırda paytaxt Bakıda da erməni əsilli insanlar yaşayır, işğal edilmiş ərazilərdə yaşayan mülki ermənilərlə bağlı heç bir problem yoxdur. Ermənistan silahlı qüvvələri həmin əraziləri tərk etdikdən və azərbaycanlı məcburi köçkünlər geri qayıtdıqdan sonra hər iki xalqın nümayəndələri sülh şəraitində birgə yaşaya bilərlər.

Türkiyənin münaqişədəki rolu ilə bağlı sualı cavablandıran M.Talıbov qardaş dövlətin Cənubi Qafqaz ölkələrinin hər üçü ilə həmsərhəd olan yeganə ölkə olduğunu, regionda sabitləşdirici rol oynadığını, buradakı əsas iqtisadi layihələrdə birbaşa iştirak etdiyini, eyni zamanda, Minsk qrupunun üzvlərindən biri olduğunu və Azərbaycanı dəstəkləyən digər ölkələr kimi, beynəlxalq hüquq mövqeyindən çıxış etdiyini bildirib.

# Alman portalı Fransanın faşist qrupunun liderinin Ermənistan üçün vuruşmağa and içməsindən yazır

Almaniyanın “Tekk.tv” portalında “Fransanın faşist qrupunun lideri Ermənistan üçün müharibə aparmağa and içir” adlı məqalə dərc olunub.

Məqalədə vurğulanır ki, Fransanın neonasist sağçı qrupunun (ZVP) lideri Mark de Kakkere-Valmenir azərbaycanlılara qarşı vuruşmaq üçün Dağlıq Qarabağdakı erməni əsgərlərinə qoşulub. Həmin şəxs hərbi formada əlində silahla sosial mediada şəkil paylaşıb. Onun müharibədə iştirakı PKK terrorçu təşkilatının və sağçı ekstremist Avropa qruplaşmalarının nümayəndələrinin də Ermənistan tərəfində vuruşmağa başladıqlarını deməyə əsas verir.

Azərbaycanın silahlı qüvvələri tərəfindən əsir götürülmüş A.Mikaelyan adlı erməni əsgəri Dağlıq Qarabağda erməni əsgərlərinin sırasında PKK terrorçularının da vuruşduqlarını etiraf edib.









## Sentyabr üzrə paytaxtda istehlak qiymətləri indeksi açıqlanıb

Sentyabrda Bakı şəhəri üzrə istehlak qiymətləri indeksi avqust ayı ilə müqayisədə 100,1 faiz, yanvar-sentyabr aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə isə 102,5 faiz təşkil edib.

Bu ilin sentyabr ayında ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi avqustla müqayisədə 100,1 faiz, cari ilin yanvar-sentyabr aylarında ötən ilin eyni dövrü ilə müqayisədə 104,7 faiz olub.

Cari ilin sentyabr ayında qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi avqust ayı ilə müqayisədə 100 faiz, bu ilin yanvar-sentyabr aylarında keçən ilin müvafiq dövrü ilə müqayisədə 100,6 faiz olub. Sentyabr ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi avqust ayı ilə müqayisədə 100 faiz, yanvar-sentyabr aylarında isə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 101,1 faiz təşkil edib.




## Bakcell Bərdə sakinlərinə dəstək göstərib

Bakcell şirkəti Ermənistanın raket atəşi nəticəsində zərər çəkmiş Bərdə şəhərinin sakinlərinə dəstək məqsədilə orada yaşayan abunəçilərinin balansını artırdı.

Bərdədəki bütün Bakcell abunəçilərinin balansına şirkət tərəfindən ölkə daxilində bütün istiqamətlərə zənglər üçün pulsuz 100 dəqiqə və 100 SMS yüklənib.

Qeyd edək ki, Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, habelə elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgəyə aidiyyəti olmayan şəhər və rayonlarımıza raket və ağır artilleriya zərbələri endirir.




Bakcell şirkəti erməni terroru nəticəsində Bərdədə və digər şəhər və rayonlarımızda şəhid olan həmvətənlərimizə Allahdan rəhmət, yaralı soydaşlarımıza isə şəfa diləyir.

**Qarabağ Azərbaycandır!**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, «Azermedia» MMC nəşriyyatı mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500